www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 avqust 2016-cı il Çərşənbə № 186 (6507) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda üzərində ermənicə yazılı, istehsal tarixi yanlış məhsul satılır

yazısı səh.14-də

**Gündəm**

### Referendumu izləmək üçün AŞ PA-ya müraciət edildi, təbliğat üçün yerlər ayrıldı



Səsvermədən sonra Nazirlər Kabinetinə ehtiyac qalmaya bilər...

yazısı səh.3-də

### Baş Prokurorluq, DİN və DTX Faiq Əmirovun həbsi ilə bağlı məlumat yaydı

yazısı səh.6-da

### Azərbaycanlı oliqarxın erməni ilə sensasion yazışması üzə çıxdı

yazısı səh.8-də

### Fazil Mustafa jurnalistlə arasındakı davadan danışdı

yazısı səh.3-də

### "ABŞ Putinin Qarabağ planını durdurmaq istəyir" - şok iddia

yazısı səh.9-da

### Rövşən Lənkəranskinin ölümünün yeni təfərrüatları

yazısı səh.4-də

### Viza rejimini sadələşdirməklə bağlı çətin seçim: turizm, yoxsa təhlükəsizlik?

yazısı səh.10-da

### Bakı Avropa Birliyi ilə danışıqları yenidən bərpa edir

yazısı səh.3-də

### Gəncədə burun əməliyyatından ölən gəncin doğmaları həkimləri reanimasiyalıq elədilər

yazısı səh.13-də

### Nəğməkar şair Vüqar Əhməd: "Gülənçilər qızım üçün təklif göndərdilər..."

yazısı səh.15-də

### Azərbaycanda İŞİD-ə maraq azalıb, nifrət isə artıb - ekspert rəyi

yazısı səh.10-da

## Türkiyənin NATO üzrə əsas müttəfiqi yol ayrıcında

# "GÜLƏN İŞİ"NDƏ KRİTİK DÖNÜŞ - ABŞ İKİ QİYMƏTLİ ƏZİZİNİN BİRİNDƏN İMTİNA EDİR

Ankaranın Ağ Evə seçim üçün verdiyi vaxt tamama yetir, ekstradisiya ilə bağlı danışıqlar bu gün bitir; Vaşinqton ya Gülləndən, ya da... Türkiyədən vaz keçməlidir; gözlər Baydendə, Amerika desə ki...




yazısı səh.8-də

## General Akif Çovdarovun ailəsinə Bakıdan çıxmaq yasağı qoyulub-vəkildən sensasion açıqlamalar

Vəkili həbsdəki generalın Eldar Mahmudov əleyhinə ifadə verib-verməməsinə "istintaq sirri" dedi; təzyiqə məruz qalan MTN-çi Ombudsman Aparatına şikayət edib, amma...; aclıq edən general son görüşündə deyib ki...

yazısı səh.5-də




### Azərbaycan prezidentinin köməkçisindən FETÖ-yə tarixi etiraz

yazısı səh.2-də



### "MTN işi"nə görə tutulan Vidadi Zeynalova yeni ittiham verildi

yazısı səh.6-da



*Hikmət Hacızadə:*

### "Klinton gəlsə, çox şey dəyişə bilər"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 185 (6506) 23 avqust 2016



## Azərbaycan prezidentinin köməkçisindən FETÖ-yə tarixi etiraz

**Əli Həsənov 7 il öncə:** "Heydər Əliyevin portretinin yanına Gülənin yox, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün portreti asılmalıdır"

**Son günlər Azərbaycan mətbuatında bir çox təşkilatların, dövlət məmurlarının, bir qrup medianın və deputatların FETÖ ilə əlaqələri haqda informasiyalar dərc olunur. Bu əlaqələrə dair materiallar bir çox hallarda arxivlərdən çıxarılaraq dərc edilir və faktlar ortalığa qoyularaq konkret şəxslər F. Gülənlə əlaqədə ittiham olunur.**

Lakin vaxtilə bu cərəyana, onun tərədarlarına qarşı çıxanlar da olub. Və onlar gülənçilərin keçirdiyi tədbirlərdə açıq şəkildə F. Gülənin təbliğinə qarşı etirazlarını bildiriblər. Onlardan biri də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov olub. Ə. Həsənov 30 aprel 2009-cu ildə "Gülüstan" sarayında Fətullah Gülən şəbəkəsinin əsas təşkilatlarından biri olan Dialoq Avrasiya Platforması (DAP) və eyni təyinatlı "Dialoq Avrasiya" jurnalının Azərbaycanda 10-cu ildönümü münasibətilə "İslam mədəniyyəti və müasir dünyada dialoq" mövzusunda keçirdiyi tədbirdə təşkilatçıları və fətullahçı şəbəkəni ciddi tənqid edib.

Sözügedən tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Hidayət Orucov, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, DAP-ın Azərbaycandakı təsisçisi və fəxri prezidenti, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, DAP-ın Azərbaycan Milli Komitəsinin sədri, millət vəkili Nizami Cəfərov, türkiyəli tarixçi, Topqapı muzey kompleksinin direktoru İlber Ortaylı, Rusiya Şərqşünaslıq İnstitutunun direktoru, professor Rostislav Ribakov, DAP-ın Qazaxıstan rəhbəri, Qazax Yazıçılar Birliyinin sədri professor Nurlan Orazalin, DAP-ın Azərbaycan nümayəndəliyinin katibi Mustafa Saatçı və başqaları iştirak ediblər.

Tədbirdə çıxış edən Əli Həsənov təşkilatçılara narazılığını ifadə edərək bildirib ki, "Dialoq Avrasiya" jurnalının və eyniadlı platformanın fəaliyyətində açıq-aşkar birtərəfli təbliğat hiss olunur, ayrı-ayrı xalqların dəyərləri, mədəniyyəti, tanınmış adamları, Avrasiya bölgəsində yayımlanmağa layiq olan insanlar, liderlər son zamanlar jurnalın səhifələrində getdikcə daha az-az görünür. Ə. Həsənov Dialoq Avrasiya Platformasının yalnız F. Gülənin təbliğatı ilə məşğul olmasına qarşı çıxaraq qeyd edib ki, "Dialoq başqa insanları sənin kimi yaşamağa, düşünməyə təhrik etmək demək deyil. Onun məqsədi dövlətlərdə, cəmiyyətlərdə ortaq hərəkət oxunu müəyyən etməkdən ibarətdir. Dialoq, tolerantlıq, Qurandan, Bibliyadan çox danışmaq da deyil. Cəmiyyətdə tolerantlıq bütün mədəniyyətlərə, dinlərə, davranış normalarına hörmətlə yanaşmaqdan, bunu reallığa çevirməkdən ibarətdir və bunları bir nəfərin adına bağlamaq düzgün deyil".

Ə. Həsənov tədbirin təşkilatçılarına ciddi iradlarını bildirərək qeyd edib ki, Heydər Əliyevin portretinin yanına F. Gülənin yox, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün portreti asılmalıdır. Eyni zamanda tədbirin açılış filmində Atatürkün adının çəkilməməsi də Ə. Həsənovun növbəti iradına səbəb olub.

Xatırladaq ki, iştirakçılara Dialoq Avrasiya Platforması Azərbaycan Milli Komitəsinin sədri professor Nizami Cəfərovun adından təqdim olunan dəvətnamələrdə mərasimin mərhum prezident Heydər Əliyevin xatirəsinə həsr olunduğu bildirilirdi. (qafqazinfo)

# Permyakov cinayətinin altında başqa məqsədlər yatır

## Ermənistan mətbuatından sensasion iddia...

**Avqustun 23-də Ermənistanın Şirak rayonun məhkəməsi Rusiyanın 102 saylı hərbi bazasının hərbi qulluqçusu Valeriy Permyakovu Avetisyan ailəsinin 7 üzvünü qətl etməkdə günahkar bilərək ömürlük həbs cəzasına məhkum edib. Bundan əlavə, Rusiya məhkəməsi Permyakova silahla fərarilik suçundan 10 il azadlıqdan məhrum etmə cəzası kəsib.**



Valeriy Permyakov

Ermənistan mətbuatının yazdığına görə, Permyakovun bu cinayəti törətməsinin motivləri məhkəmədə qəsdən üzə çıxarılmayıb. Erməni Iragir saytı isə cinayətlə bağlı maraqlı versiya ortaya atıb. İlk növbədə Permyakovun cinayət törədildiyi zaman tək olmadığı iddia olunur.

Bundan başqa, Permyakov cinayətinin arxasında tamamilə başqa məqsədlərin güdüldüyü iddia edilir. Belə ki, Ermənistan saytlarının fikrincə, cinayət törətməkdə əsas məqsəd Ermənistanı qorxutmaq və Rusiyanın hərbi bazası üçün daha geniş ərazilər və səlahiyyətlər almaq olub. Maraqlıdır ki, cinayətdən dərhal sonra Gümrü meri ətraf əraziləri hərbi bazanın ixtiyarına verib.

Ermənistan dövləti isə hava hücumundan müdafiə ilə bağladığı müqavilə ilə hava səmasını tamamilə Rusiyaya təslim edib, hazırda Ermənistanla Rusiya arasında ümumqoşun birləşmələrinin yaradılması ilə bağlı müzakirələr gedir. Saytın yazdığına görə, hazırkı iş Ermənistanın suverenliyi üçün lakmus kağızına çevrilib. Yalnız bütün izlər silindikdən sonra Permyakov Ermənistana təhvil verilib.

Ermənistan saytının yazdığından belə aydın olur ki, Rusiya erməni ailəsini qırmaqla əslində Ermənistanın özünə mesaj vermiş olub. Hər halda, bu cür "mesajlar" Ermənistana ilk dəfə verilmir. Xatırladaq ki, 1999-cu il oktyabrın 27-də Nairi Unanyan adlı terrorçu Ermənistan parlamentinin iclasına daxil olub oranı güllələbaran etmişdi. Nəticədə baş nazir Vazgen Sərkisyan və parlamentin spikeri Karen Dəmirçiyan da daxil olmaqla, 8 nəfər həlak olmuşdu.

❑ **Vaqif HÜSEYN**

# İki ən yaxşı tələbə jurnalist təhsilini Londonda davam edəcək

**«Azercell Telekom» MMC-nin Kaspi Təhsil Mərkəzi ilə 2016-cı il üzrə jurnalistlər üçün təşkil etdiyi ingilis dili kursları artıq yekunlaşıb. Hazırda Təhsil Mərkəzi tərəfindən kurslarda iştirak edən jurnalistlərin bilik səviyyələri müəyyənləşdirilir. Bununla bərabər, Londona səfər edəcək 2 ən güclü tələbənin seçimlərinə də başlanılıb. Hər il olduğu kimi, bu il də imtahanlarda yüksək nəticələr göstərən 2 jurnalist tələbə müəyyən olunacaq və onlar Böyük Britaniyada ingilis dilinin təkmilləşdirilməsi kursuna göndəriləcəklər.**

Qeyd edək ki, sözügedən layihə zamanı 6 ay ərzində mətbuat nümayəndələri bir neçə səviyyədən ibarət ingilis dili proqramı üzrə tədris keçiblər. 60 jurnalistin qatıldığı kursların uğurlu tədrisi sayəsində onlar ingilis dilinin qrammatikası, danışıq və yazı bacarıqlarına yiyələniblər. Kursların məqsədi Azərbaycanlı jurnalistlərin ingilis dilini öyrənməsinə kömək etmək, onların ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaqdan ibarətdir. Məlumat üçün bildirək ki, "Azercell" şirkəti jurnalistlər üçün xarici dil kurslarını artıq 6 ildir ki, təşkil edir. Bu günə kimi 200-dən çox KİV nümayəndəsi ixtisaslaşmış xarici dil kurslarında iştirak edib. Bununla da KİV nümayəndələrinin inkişafına yönələn bu layihə ilə "Azercell" şirkəti onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına dəstək olur. "Azercell" şirkətinin təşkil etdiyi ingilis dili kurslarına növbəti qeydiyyat barədə mətbuat nümayəndələrinə əlavə məlumat veriləcək. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## İsti havalar davam edəcək

**Bakıda və Abşeron yarımadasında isti hava şəraiti davam edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, şimal küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-25° isti, gündüz 31-36° isti, Bakıda gecə 23-25° isti, gündüz 33-35° isti olacağı gözlənilir. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 55-65%, gündüz 25-35% olacaq.**

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26°, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti olacağı gözlənilir. Yaxın 3 gün ərzində Abşeron yarımadasında sabit hava şəraiti müsbət amil olsa da, günorta vaxtı isti temperatur diskomfortu və bəzi saatlarda havada yaranan durğunluq meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Şərq küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın hərarətinin gecə 18-23° isti, gündüz 34-39°, dağlarda gecə 14-19° isti, gündüz 25-30° isti olacağı gözlənilir.

## Ötən illə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı azalıb



Vaqif Əsədov

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov musavat.com-a açıqlamasında son dövrlər baş verən yol-nəqliyyat hadisələrindən danışıb. O bildirib ki, yol polisləri tərəfindən məqsədli keçirilən tədbirlər nəticəsində son zamanlar yol-nəqliyyat hadisələrinin sayı xeyli dərəcədə aşağı düşüb.**

V. Əsədov konkret olaraq vurğulayıb ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu il ölkə üzrə 130 hadisə, 111 ölüm faktı azalıb: "Həmçinin ötən illə müqayisədə 122 xəsarət sayı da azalıb. Bundan əlavə, xəsarət dərəcələri belə yüngülləşib. Bütün bunlar aparılan təbliğat və görülən tədbirlərin nəticəsidir. Bakı şəhəri üzrə qeydə alınan yol-qəza hadisələrinin təhlilinə nəzər saldıqda görmək olur ki, sürət həddinin artımı ilə əlaqədar qeydə alınan hadisələr 41 faizə düşüb. Piyada vurma faktları isə 57 faizə qalxıb. İkinci nüans doğrudan da ciddi narahatlıq doğurur. Ancaq yenə də piyada vurma faktlarının qarşısının alınması üçün bizim əməkdaşlar tərəfindən tədbirlər görülür".

V. Əsədov bildirib ki, Bakı şəhəri üzrə də hadisələrdə azalma var.

❑ **Əli RAİS**

### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

## Düzəliş:

**"Yeni Müsavat" qəzetinin 20-21 avqust tarixli sayında "Erməni politoloqdan acı etiraf - Azərbaycan bizi qabaqladı" xəbərində erməni politoloqunun şəkli əvəzinə deputat Vüsal Hüseynovun fotosu gedib.**

**Nəzərə çatdıraq ki, xəta sırf texniki xarakterli olub və hörmətli parlament üzvünün şəxsiyyəti ilə bağlı hər hansı başqa məqsəd güdülməyib. Yanlışlığa görə üzr istəyirik.**

❑ **REDAKSİYA**

**Azərbaycan sentyabrın 26-da keçiriləcək referendumu müşahidə etmək üçün Avropa Şurası Parlament Assambleyasına (AŞPA) dəvət göndərib. Bu barədə APA-ya AŞ PA-dan məlumat verilib. AŞ PA bürosu sentyabrın 5-də keçiriləcək növbəti iclasında bu dəvəti nəzərdən keçirəcək.**



# Referendumu izləmək üçün AŞPA-ya müraciət edildi, təbliğat üçün yerlər ayrıldı

## Səsvermədən sonra Nazirlər Kabinetinə ehtiyac qalmaya bilər

Referendumla bağlı yaradılan təşəbbüs qruplarına təşviqat qrupu kimi qeydə alınmaq üçün 41 min imzanı və lazımi sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etmələrinə qoyulan müddət isə dünən başa çatıb. Bəlli olub ki, ümumilikdə prosesə beş təşəbbüs qrupu qatılıb MSK-dan imza vərəqələri götürsə də REAL Vətəndaş Hərəkatı imza kampaniyasını yarımçıq dayandırıb. REAL təmsilçisi bunu qurumun rəhbərliyinə qarşı son vaxtlar həyata keçirilən həbslərlə və maneələrlə əlaqələndirib.

Təşəbbüs qruplarından üçü isə artıq qeydə alınıb. Bunlar YAP-ın yaratdığı "Yeni Azərbaycan", bir qrup QHT-nin yaratdığı "Vətəndaş cəmiyyəti", bələdiyyələrin yaratdığı "Bələdiyyə" təşviqat qruplarıdır. İmza vərəqələrini MSK-ya təhvil verən dördüncü təşviqat qrupu isə Müsavat Partiyasının yaratdığı "Respublika" təşəbbüs qrupudur. "Respublika" üçün toplanan 41 mindən yuxarı imza və lazımi sənədlər avqustun 22-də MSK-ya təqdim edilib. Müsavatdan bildirilib ki, respublika üzrə 88 seçki dairəsi əhatə edilib, 824 imza vərəqində 41 128 seçici imzası təhvil verilib MSK-dan müvafiq arayışı alınıb. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, MSK "Respublika" təşviqat qrupunun qeydə alınması barəsində 7 gün ərzində qərar verməlidir.

Sentyabrın 3-dən isə referendumla bağlı təbliğat-təşviqat kampaniyasına rəsmi start veriləcək. Kampaniya sentyabrın 25-də səhər saat 8-də dayandırılacaq.

Təbliğat-təşviqat kampaniyasının aparılması üçün "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna uyğun olaraq şəhər və rayonlarda müəyyən edilmiş açıq və qapalı yerlərin siyahısı da dünən açıqlanıb. Şəhər və rayonlarda 117 seçki dairəsi üzrə 128 açıq və 128 qapalı yer (ümumilikdə 256 yer) müəyyən edilib.

Referendum öncəsi mitinq keçirilib-keçirilməyəcəyi hələ dəqiq bəlli olmasa da YAP icra katibinin müavini Siyavuş Novruzov bildirib ki, Azərbaycanda mövcud şərait insanları qane edir. Ona görə kütləvi etiraz aksiyalarının keçirilməsinə ehtiyac yoxdur. "Report"a açıqlamasında Siyavuş Novruzov deyib ki, referendumdan sonra etiraz aksiyalarının olacağını iddia edənlər proqnozlarında yanılırlar.

Referendumda Konstitusiyaya dəyişikliklər edildikdən sonra Azərbaycanda idarəçilik sistemində ciddi dəyişikliklər, islahatların həyata keçiriləcəyi, bunun bir konstitusiya tələbi olaraq reallaşdırılacağı deyilir.

**Ən ciddi dəyişikliyin Nazirlər Kabineti ilə bağlı olacağı artıq xeyli vaxtdır müzakirə mövzusudur. Bu müzakirələrin təsadüfi olmadığı, reallığa əsaslandığını avqustun 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin APA-ya verdiyi açıqlamalardan da görmək olar. Ə. Hüseynli bildirib ki, Azərbaycanda son dövrlər həyata keçirilən islahatların sürəti ilə Nazirlər Kabinetinin idarəetmə sistemi arasında böyük təzad var. Bu kontekstdə icra hakimiyyəti institutunda həyata keçirilən institusional islahatlar daha çox əhəmiyyət kəsb edir:** "Bu, Azərbaycanda vitse-prezidentlər institutunun yaradılması ilə bağlı təklif edilən müddəalardır. Uzun müddətdir ki, cəmiyyətimiz, insanlarımız ölkə prezidentinin həyata keçirdiyi islahatlara birbaşa rəhbərlik etdiyini müşahidə edirlər. Başqa sözlə, prezidentin bu islahatları daha çox birbaşa administrasiyası vasitəsilə həyata keçirdiyi də görünür. Baxmayaraq ki, Nazirlər Kabineti mövcuddur, qərarlar qəbul edilir və o qərarlar müəyyən bir müddət çərçivəsində qəbul edilir. Amma ölkə prezidenti tərəfindən qəbul edilən qərarların sürətli icrasını müşahidə edirik. Bu, daha çox yeni institusional islahatları tələb edir. Bu baxımdan, prezident tərəfindən təyin ediləcək vitse-prezidentlər institutunun yaradılması bir zərurətə çevrilir. Bu, iqtisadiyyatın bütün sahələrində müşahidə etdiyimiz bir reallıqdır".

**Ə. Hüseynli Azərbaycanda son dövrlər həyata keçirilən islahatların sürəti ilə Nazirlər Kabinetinin idarəetmə sistemi arasında böyük təzad olduğuna diqqət çəkib:** "Əlbəttə, Nazirlər Kabinetinin mövcud konstitusiyaya və qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri var və öz icra mexanizmləri mövcuddur. Nazirlər Kabineti kollegial orqandır. Hüquq sahəsi ilə bağlı deyə bilərəm ki, çoxlu sayda sənədin, hətta qanunvericilik aktlarının qəbulu ilə bağlı müəyyən zamana ehtiyac olur. Nazirlər Kabineti həmin sənədlərə baxır, təbii ki, kollegial orqan olduğu üçün aidiyyəti nazirliklərə göndərir. Nazirliklərdə sənədlər hazırlanır, onlara viza qoyulur, yenidən Nazirlər Kabinetinə qaytarılır. Bu proses bəzən aylarla sürən prosesə çevrilir. Bu gün isə Azərbaycanın indiki inkişaf mərhələsi, onun regionda, dünyada tutduğu mövqe fonunda qərarların çox sürətlə, bir neçə gün, bəzən saatlarla ölçülən zaman çərçivəsində qəbulu və icraya yönəlməsi tələb olunur".

Ekspertlər hesab edir ki, əslində Əli Hüseynli bu açıqlamaları ilə siyasi hakimiyyətin Nazirlər Kabineti ilə bağlı çox ciddi qərarlar vermək ərəfəsində olduğunun anonsunu verib.

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycan Avropa İttifaqı ilə danışıqları bərpa edir



**Azərbaycan və Avropa İttifaqı mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində danışıqları bərpa edir. Bu barədə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev "Trend"ə bildirib.**

"Sentyabrda altkomitələr işini bərpa edəcək. Və payız ayları ərzində dörd altkomitənin iclaslarının keçirilməsi nəzərdə tutulur. Bunlar ticarət, energetika və nəqliyyat, ekologiya, təhlükəsizlik və insan haqları, təhsil və digər sosial məsələlər üzrə altkomitələrdir" - nazir müavini bildirib.

**Məmmədquliyevin sözlərinə görə, bu danışıqlar Aİ-nin Azərbaycanla strateji tərəfdaşlığa dair yeni razılaşmasına dair müzakirələr üçün mandatın verilməsinin vaxtından asılı olmayaraq başlayacaq.** "Gözlənilir ki, Azərbaycana mandat oktyabr ayı ərəfəsində veriləcək, lakin bu hələ ilkin müddətdir. Bundan asılı olmayaraq biz Aİ ilə mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində işi bərpa edəcəyik" - nazir müavini deyib.

Məmmədquliyev hesab edir ki, strateji tərəfdaşlıq haqda sazişin imzalanması Azərbaycanla Aİ arasında əməkdaşlığı daha yüksə səviyyəyə qaldıracaq. Yeni razılaşma layihəsi Azərbaycan qanunvericiliyinin və prosedurlarının Aİ-nin standartlarına, ən mühüm beynəlxalq ticarət normalarına uyğunlaşdırılmasını nəzərdə tutur. Bu, Azərbaycan mallarının Aİ bazarlarına daxil olmasını asanlaşdıracaq.

Azərbaycan Aİ-nin Assosiasiya razılaşması təklifini qəbul etməyib, bunun əvəzində strateji tərəfdaşlıq proqramı təklif edib. Avropa Parlamentinin Bakıya qarşı qəbul etdiyi qətnamələrdən sonra Brüsselllə danışıqlar dayandırılmışdı.

# Fazil Mustafa jurnalistlə arasındakı davadan danışdı

## "Bunu öz şərəfimə sığışdırmaram..."

## "11-ci sinif məzunu deyir ki, mən peşəkar jurnalistəm"



**Deputat Fazil Mustafa ilə terefdar.az saytının əməkdaşı arasında baş verən xoşagəlməz dialoq medianın müzakirə mövzusudur. F.Mustafa ona zəng edən jurnalistə verdiyi cavabla bağlı aşağıdakı statusu yazıb: "Bir jurnalist zəng vurub sual verir ki, tərəfdar.az (İran kəşfiyyatı ilə bağlı saytlardan biri) saytı yazır ki, bəs Fazil Mustafa gülənçidir, buna münasibətiniz? Cavab verdim ki, mən də iddia edirəm ki, tərəfdar.az saytının redaktoru bic doğulub və qanundankənar atası da məhz Fətullah Güləndir. Jurnalist bir də təkrar soruşur ki, siz bu iddianızı sübut edə bilərsinizmi? Deyirəm ki, mən ancaq saytın iddiasına qarşı iddia ilə çıxış etmişəm. Buyurub, onlar iddialarını sübut etsinlər, ardınca mən də iddiamı əsaslandırım. Səs çıxmadı".**

Bütün hallarda deputatla jurnalist arasında yaşanan dialoq öz sərt üslubu ilə fərqlənir və adətən media əhli F.Mustafa ilə belə dialoqu yaşamayıb. Ona görə də qeyri-adekvat reaksiyasının səbəbi bizə də maraqlı gəldi. F.Mustafa "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, hər zaman jurnalistlərə qarşı kifayət qədər nəzakətli olub və peşələrinə hörmət etdiyi üçün onlara köməklik etməyə çalışan mövqe nümayiş etdirib: "Jurnalistlərə əziyyət vermirəm. Bəzən mövqeyimi status kimi yazıram ki, ordan yaysınlar. Amma o cavabı həqiqətən də vermişəm və sərt ifadə edilən bir cavab olub. Bunu isə bilərəkdən etdim. Adamlar yazmışdılar ki, "Gülənin imamı Fazil Mustafa ondan imtina edir". Başlığın qabağına isə "fakt" sözü yazıblar. Amma fakt yoxdur. Bunu bizə düşmən olan ölkələrin xarici kəşfiyyat qurumlarından göndəriblər. Əvvəl adımı Ərəbistana bağlayıblar, indi isə Türkiyəyə. Mənim dinə, elmə, ədəbiyyata öz fərqli baxışım var. Məni kimlərinsə quyruğuna bağlamaq sifarişdir. Adamlar bu yazını yazıblar, yayıblar, sonra da mənə zəng edib, mövqe soruşurlar. Halbuki orda bir dənə belə sübut yoxdur. Mənim Azərbaycanın maraqlarından kənara çıxan bir hərəkətim yoxdur, ola da bilməz. Bunu öz şərəfimə sığışdırmaram. Birdən-birə belə yalan informasiyaları məqsədyönlü şəkildə tirajlayırlar".

**Müsahibimiz dedi ki, belə bir informasiyanı yayan saytın olması, ona rəhbərlik edən şəxsin kimliyi də Azərbaycan jurnalistikasının acınacaqlı vəziyyətini göstərir. Onun sözlərinə görə, vaxtilə "3"lə oxuyan uşaqlara varlı ataları maşın alırdısa, indi pul verib sayt açırlar:** "Bu adam şirkətlərdən birinin vitse-prezidentidir, oğluna sayt açıb. Əvvəl maşın alırdı, vəzifə verirdi. İndi sayt açıb, reketçiliyə səbəb verir. Bu xəbəri yayan 3-4 sayt daha sonradan o xəbəri çıxarıb, üzr istədilər. Amma bu sayt həmin xətti davam etdirdiyinə görə bu cür sərt cavabı da haqq etdilər. Mən deputatam. Məni nə səviyyəsini, nə ağlını qəbul etdiyim şəxsin təmsilçisi kimi təqdim etmələrini qəbul etmirəm və sərt cavab da verirəm. Adekvat olmaya bilər, amma jurnalistika başqa şeydir. Peşə etikası var. Yazının başlığına "fakt" sözünü çıxarmısansa, bunu da sübut etməlisən. Üstəgəl, yazını yazanda mənim mövqeyimi də almamısan. Halbuki telefonum, FB-də hesabım açıqdır. Yazmadan mövqe almaq lazım idi".

**F.Mustafa təklif etdi ki, bundan sonra avtoş jurnalistlər assosasiyası yaradılsın və bu sayaq qeyri-ciddi saytlar həmin assosiasiyanın üzvü olsun:** "Bir tərəfdə Mətbuat Şurası olsun, o biri tərəfdə bu cür jurnalistlər. Azərbaycan jurnalistikasının faciəsi odur ki, 11-ci sinif məzunu deyir ki, mən peşəkar jurnalistəm. Mən də burdan Mətbuat Şurasına müraciət edirəm: bu uşaq hardan bu pulu tapıb belə bir sayt açıb? İstənilən şəxs üçün bu bazar açıqdır, şərtlər uyğundur? Sayt açıb, sonra da millət vəkilinə, tanınmış adamlara istənilən şəri deyə bilirlər. Kimisə mənim işlətdiyim o ifadə narahat edibsə, özüm də üzülürəm. 11-ci sinif şagirdi vunderkinddirsə, ətəyində namaz qılaq. Yox, deyilsə və insanları bu cür şərləyirsə, tədbir görək. Axı bu adamlar üstümüzə gəlir, bizə böhtan atırlar. Bəlkə başqalarına qarşı da bunu edirlər. Mən hesab edirəm ki, vicdanlı media mənsubları bu məsələnin üzərinə getməlidir. Hər bir adam atasının pulu var deyə, sayt açsa, vəziyyət necə olar?"

**Müsahibimiz dedi ki, bu günə qədər F.Gülənin bir əsərini də oxumayıb, bir videosuna da baxmayıb. Onun sözlərinə görə, cəmi bir dəfə Gülən məktəblərinin bağlanmasının Azərbaycan təhsili üçün zərərli olduğunu, keyfiyyəti aşağı salacağını deyib: "Biz öz marağımız üçün çalışmalıyıq. Bunun adamları pisdirsə, qovun demişəm".**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

**İstanbulda avtomat silahlarla avtomobilinə atəş açılması nəticəsində öldürülən Rövşən Lənkəranskinin (Canıyev) ölümü ilə bağlı bəzi detallar üzə çıxıb.**

# Rövşən Lənkəranskinin ölümünün yeni təfərrüatları

## Qətlə rusiyalı deputat və baş nazirin sabiq 1-ci müavininin adı da qarışdı...

Qətlin motivi haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, əfsanəvi "qanuni oğru"nun güllələbaran edilməsi Moskvanın Domodedovo rayonundakı eyni adlı meyvə-tərəvəz bazarına nəzarətdən doğan mübahisəyə görədir. Hətta qətlin mümkün sifarişçisinin adı da çəkilir - Timur.

Bu şəxsin Rusiya Federasiyası Dumasının deputatı Aleksandr Şişkinin şəxsi mühafizə xidmətinin rəisi olduğu deyilir. Bildirilir ki, bazarda mübahisə illərdir ki, davam edir. Həmin bazardakı mübahisələr 2014-cü ilin yanvarında pik nöqtəsinə çatıb. O dövrdə Rusiya mətbuatında "Domodedovo" bazarındakı mübahisələr Moskvada azərbaycanlılar arasında bazar müharibəsi kimi təqdim edilib. Bazarın baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasova aidiyyətinin olduğu və özünə yaxın şəxsin idarə etdiyi haqda xəbərlər gəlib.

"Domodedevo" bazarında Azərbaycandan mal aparan sahibkarlarla bağlı ciddi problem yaşanıb. Həmin bazar 2013-cü ildə sökülən "Pokrovsk" bazarının əvəzinə açılıb. "Pokrovsk" bazarı bağlanandan sonra oradakı azərbaycanlı ticarətçilər "Domodedovo"ya köçürülüb. Amma ora uzaq olduğundan və alver üçün münbit şərait olmadığından Azərbaycandan gedən və Moskvaya kənd təsərrüfatı malları aparan soydaşlarımız Moskva Dairəvi yolunun yaxınlığındakı "41" adlanan bazarı üstün tutublar. Bundan sonra digər bazarlardakı azərbaycanlılar da mallarını həmin bazara aparmağa başlayıb. Bundan narahat olan bazar rəhbərliyi rəsmi dairələrlə ələqələrindən istifadə edərək təzyiq rıçaqlarını işə salıb. Moskvaya Azərbaycandan gətirilən meyvə-tərəvəz dolu maşınlar zorla "Domodedova"ya aparılmağa başlayıb. Orada isə bazar sahibinin qoçuları həmin sahibkarları az qala girov götürüblər. Bir maşının bazara daxil olması üçün o dövrdə 1000 dollar alınıb. Sonra isə hər günə görə 500 dollar sahibkardan əlavə toplanıb. O dövrdə iş adamlarının bir neçəsi toplaşaraq Abbas Abbasovla görüşmək üçün "AzerRos"un yerləşdiyi Moskva şəhəri Krasnopresenski küçəsi - 24 ünvanında olublar. Lakin Abbas Abbasov yaxasını kənara çəkib, "gedin, məsələni bazar rəhbərliyi ilə həll edin" deməklə sahibkarları qapıdan yola salıb.



Mənbəmiz bildirib ki, Rövşən Lənkəranskinin öldürülməsi planı olsa da, tezliklə icra edilməsi nəzərdə tutulmurmuş. Qaynağımız onun Türkiyədə özünü rahat hiss edib sayıqlığını itirməsi haqda söylənilənlərin doğru olmadığını bildirib. Onun sözlərinə görə, Rövşən Lənkəranski qətlindən əvvəl "Mersedes - S class" markalı zirehli maşın sifariş edib. Həmin maşın ona avqustun 19-da çatdırılmalı imiş. Avqustun 18-də öldürülməsinin bu məlumatın onun opponentlərinə çatdırılmasını düşünmək üçün əsaslar yaradır. Belə məlumat var ki, Rövşən Lənkəranskinin zirehli maşın alacağı haqda məlumatı əks cinaha - onun düşmənlərinə Tahir adlı sürücüsü ötürüb. Qətl buna görə ertələnib. Rövşən Lənkəranskini zirehli maşında öldürmək ehtimalının azlığı onun düşmənlərini təcili hərəkətə keçirib.

Ölkə.az xəbər verir ki, Rövşəni öldürən sui-qəsdçilərin bir ay əvvəldən İstanbula gəldikləri və onu izlədikləri müəyyənləşdirilib. Açılmış cinayət işi ilə bağlı 3-ü Azərbaycan vətəndaşı olmaqla, 6 nəfər şübhəli şəxs qismində saxlanılıb. İddiaya görə, sui-qəsdçilər hələ Rövşən Türkiyəyə gəlməmişdən onun Türkiyədə gedəcəyi ehtimal edilən yerləri öncə Antalyada, daha sonra İstanbulda gəzərək yaxından tanıyıblar. Polisin cinayətlə bağlı saxlanılan 6 nəfərlə birlikdə sui-qəsdçilərə Rövşən haqda məlumatlar ötürən daha bir Azərbaycan əsilli şübhəlini də göz altına aldığı deyilir. Rövşənin hadisə baş verən günü getdiyi yerlərdəki kameralar vasitəsilə həmin şəxslərə aid məlumatlar əldə edilməyə çalışılır.

Kamera görüntülərini araşdıran polislər sui-qəsdçilərin Antalyadan kirayə götürülmüş avtomobillə mehmanxana ətrafına gəldiklərini müəyyən edib. Polislər həmin avtomobili müsadirə edib. Hadisə yerində həmçinin bir ədəd uzun lüləli silah, tapança və 65 boş güllə tapılıb.

Digər tərəfdən, istintaqı dərinləşdirən polis Rövşənin qətlinin səbəbi kimi 2013-cü ildə İstanbulda törədilən bir cinayətin qisası ola biləcəyi ehtimalı üzərində dayanıb. 18 avqust 2013 tarixində Baxçaşəhərdə lüks bir villanın hovuzunda Rövşənin türmədən tanıdığı azərbaycanlı iş adamı və cinayətkar aləmdə tanınan Əli Həmidov ("Qoca" ləqəbli) öldürülmüşdü. Hadisə vaxtı yaralanan rus əsilli Asiyat Alaşov polisə verdiyi ifadəsində Həmidovun ölərkən onun qulağına "Rövşən" adını pıçıldadığını deyib. İddialara görə, Rövşən yeraltı hesablaşmasında Həmidovun ölüm əmrini veribmiş. Bundan sonra rəqibləri tərəfindən öldürülməsi üçün başına 5 milyon dollar mükafat qoyulan Rövşən Lənkəranski də Əli Həmidovun adamları tərəfindən intiqam məqsədilə qətlə yetirilib. Rövşənin qətli üçün Həmidovun öldürüldüyü tarix olan 18 avqust xüsusi təyin olunub. Digər bir iddiada isə 16 yanvar 2013-cü ildə kürd əsilli mafiya lideri Ded Xasanın Rusiyada öldürülməsində Rövşənin rolunun olduğu, bundan sonra rus rəsmilərin mafiya müharibəsində Rövşənin Türkiyəyə qaçdığını müəyyən etdiyi və Ded Xasanın adamlarının Rövşənin qətli üçün 12 killeri Türkiyəyə göndərdiyi irəli sürülüb. İstanbul polisinin bu ehtimal üzərində də iş apardığı deyilir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Təklif edirəm ki, bank rəhbərlərini Milli Məclisə yığaq və soruşaq ki..."



## Vahid Əhmədov: "Problemli kreditlərlə bağlı məsuliyyəti heç bir qurum öz üzərinə götürmür"

**İqtisadçı ekspert Vüqar Bayramov ötən gün "Yeni Müsavat"a açıqlamasında problemli kreditlərin həlli ilə bağlı maraqlı təkliflər səsləndirib. İqtisadçı qeyd edib ki, dollarla olan bütün kreditlərə görə vahid məzənnənin müəyyənləşdirilməsi çətin olsa da, hökumət 5000 dollara qədər olan kreditlərə görə konkret məzənnə müəyyənləşdirə bilər, məsələn, bu 1.05 ola bilər.**

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov** da bildirdi ki, komitə hökumətə problemli kreditlərin həlli ilə bağlı təkliflər paketi göndərib, lakin 4 aydır ki, deputatların müraciətinə cavab verilməyib. Məclis üzvü bu durumdan narahatlığını dilə gətirib: "Problemli kreditlərin həlli ilə bağlı mənim və Əli Məsimlinin hökumətə təklifləri var. Bu təkliflər rəsmi şəkildə hökumətə təqdim olunub və biz bu barədə mətbuata da məlumat vermişik. İki aydır təkliflərə həmin qurumlar tərəfindən baxılır. Ancaq çox təəssüf ki, hələlik hər hansı reaksiya yoxdur. Bizim təkliflərimizdə söhbət yalnız problemli kreditlərdən getmir. Gələcəkdə də bank sisteminin fəaliyyəti ilə bağlı atılacaq addımlardan gedir".

**Problemli kreditlər məsələsinə gəlincə, V. Əhmədov bildirdi ki, bu məsələdə məsuliyyəti heç bir tərəf öz üzərinə götürmür:** "Dövlət başçısının bu məsələyə baxılması ilə bağlı göstərişi var. Biz də prezidentin iqtisadi islahatlar üzrə köməkçisinə, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasına və Mərkəzi Banka təkliflər göndərmişik, ancaq təəssüf ki, bu məsuliyyəti heç bir tərəf öz üzərinə götürmür, müraciətimizə cavab vermirlər. Azərbaycan bank sisteminin sağlamlaşdırılması bu gün bir nömrəli məsələdir. Biz arxayın idik ki, Maliyyə Bazarlarına Nəzarət Palatası bu sahədə müəyyən işlər görəcək. Düzdür, bankların diaqnostikasını apardı, müəyyən problemləri üzə çıxartdı. Amma biz bank sistemində ciddi islahatlar görmürük. Bankların bağlanması problemi həll etmir. Biz təklif etmişdik ki, banklar birləşdirilsin, yeni banklar yaradılsın, onların kredit portfeli böyük olsun. Təkliflərimiz çoxdur, lakin hələ də baxılmayıb. Yəqin ki, Milli Məclisin sentyabrın 15-də başlayan iclasında bu məsələlər çox ciddi şəkildə müzakirəyə çıxarılacaq".

**Problemli kreditlərin həcminin artmasına toxunan deputat bu vəziyyətin Azərbaycanda maliyyə bazarına mənfi təsir etdiyini vurğuladı:** "Biz problemi vətəndaşlar, banklar və Mərkəzi Bankın, dövlətin arasında bölüşdürmüşük ki, heç kim əziyyət çəkməsin. Vətəndaşlar da vaxtı-vaxtında kreditləri qaytarmaq imkanına malik olsunlar. Əks halda, problemli kreditlərin məbləği aybaay artır, artıq 1,5 milyard manata gəlib çatıb. Bəzi banklar var ki, müəyyən güzəştlərə gediblər. Ancaq bu, hamısına şamil deyil. Mən son bir ayda 200-dən çox şikayət almışam, onları Maliyyə Bazarlarına Nəzarət Palatasına, banklara göndərmişəm. Bəzilərinə müsbət cavab alırıq, bəzilərinə isə banklar riayət etmir, insanları məhkəməyə verirlər, kredit ödəməyə məcbur edirlər. Bu gün (dünən-red.) Qubada 156 nəfər şikayətçi qəbul etmişəm. Onun 30-40 nəfəri banklarla ələqədar müraciət edir, kreditləri qaytarmağa imkanları yoxdur. Problemli kreditlər həm də Azərbaycanın maliyyə bazarı üçün problem yaradır. Son vaxtlar Maliyyə Nazirliyi, Mərkəzi Bank, palata müəyyən addımlar atmaq istəyirlər ki, manatı qoruyub saxlasınlar. Hazırda Mərkəzi Bank yumşaq devalvasiya prinsipi ilə manatın devalvasiyasını həyata keçirir, mən də bununla razıyam, başqa yol yoxdur".

**Vahid Əhmədov hazırda bank sisteminin sağlamlaşdırılması məsələsini dövlətin qarşısında duran bir nömrəli vəzifə kimi qiymətləndirdi:** "Kreditlərin qaytarılmaması isə əmanətlər üçün problem yaradır. Digər bir səbəb isə odur ki, biz devalvasiyalardan sonra bu günə qədər insanları bank sisteminə inandıra bilməmişik. Yəni bu məsələ açıq qalıb. İnsanlar banklara inanmırlar, əmanətləri bankda saxlamırlar. Başqa yandan, əmanətlərdə dollarizasiya prosesi davam edir.

Bizim təkliflərimizdən biri də problemli kreditlər üzrə faizlərin hesablanmasının dayandırılmasıdır. Bu təkliflərdən hansının qəbul olunacağını bilmirik. Bizim müraciətimizdən 4 ay vaxt keçir. Ancaq millət vəkili kimi rəsmi müraciətimizə bir ay müddətində cavab almalıydıq. Milli Məclisdə də mən bu məsələyə ciddi toxunmuşam, Milli Məclisin sədrinə də bu məktubu ünvanlamışam. Mən hətta təklif etdim ki, bank sistemini Milli Məclisə yığaq və soruşaq ki, niyə problemlər bu qədər dərinləşir, problemli kreditlərin faizləri artır, miqdarı artır. Bankların özündə də problemlər var, biz onları da nəzərdə tutmuşuq. Cənab prezidentin bank sisteminin sağlamlaşdırılması ilə bağlı göstərişi nə qədər tez yerinə yetirilərsə, maliyyə vəziyyəti bir o qədər yaxşı olar".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

# Akif Çovdarovun ailəsinə Bakıdan çıxmaq yasağı qoyulub-vəkildən sensasion açıqlamalar

## Vəkili həbsdəki generalın Eldar Mahmudovun əleyhinə ifadə verib-verməməsinə "istintaq sirri" dedi; təzyiqə məruz qalan MTN-çi Ombudsman Aparatına şikayət edib, amma...; aclıq edən general son görüşündə deyib ki...



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun vəkili Sadiq Rəsulov "Yeni Müsavat"a müsahibə verib.**

*Ötən il noyabrın 15-də həbs olunan A.Çovdarov Bakı İstintaq Təcridxanasına göndərilib. Aylardır orada saxlanılan A.Çovdarov bir neçə gün əvvəl təcridxanada aclığa başlayıb. Vəkilə ilk sualımız da elə aclıq aksiyasının səbəbi ilə bağlı oldu:*

- Akif Çovdarovun aclıq aksiyasına başlaması aparılan istintaqla bağlıdır. Digər təqsirləndirilən şəxslərdən fərqli olaraq Akif Çovdarov xəstədir. İstintaq qərar qəbul edib ki, Akif Çovdarov hər gün 3-4 cildlə tanış olmalıdır və istintaq avqustun 30-da yekunlaşmalıdır. Akif Çovdarovun səhhəti isə buna imkan vermir. Ona görə də o, aclıq aksiyası keçirir, ona işlə tanış olmaq üçün şərait yaradılmasını istəyir. Hesab edir ki, istintaqın qərarı qanunsuzdur, qəsdən onun işlə tanış olmasının qarşısını almağa yönəlib. Deyir ki, mənə imkan verin ki, iş materialları ilə tanış olum.

***- Sizcə, istintaqın Akif Çovdarova qarşı mövqeyi niyə belədir?***

- Ona deyirlər ki, digər təqsirləndirilən şəxslər iş materialları ilə tanış ola bilirlər. Nəzərə almırlar ki, onlar cavan və sağlamdırlar, səhhətlərində heç bir problem yoxdur. Digər tərəfdən, Akif Çovdarovdan fərqli olaraq həmin şəxslərə 50-dən çox cilddən ibarət iş materiallarındakı cildlərin 4-5-i aiddir. Amma Akif Çovdarova bütün cildlərin aidiyyəti var və o, bütün cildlərlə tanış olmalıdır. Bu məsələ ilə bağlı Akif Çovdarovla istintaq arasında fikir ayrılığı yaranıb və o, avqustun 19-dan aclığa başlayıb.

***- Qanunla təqsirləndirilən şəxs hansı müddət ərzində cinayət işinin materialları ilə tanış olmalıdır?***

- Qanunda konkret müddət göstərilməyib, ağlabatan müddət ifadəsindən istifadə edilib. Akif Çovdarov bacardığı qədər cinayət işinin materialları ilə tanış ola bilir. Nəzərə alınmalıdır ki, o, mütəmadi olaraq tibbi-sanitar hissədə müayinə və müalicələrdən keçir. O, hər gün bu prosedurlardan keçdiyindən 11-12-yə qədər iş materialları ilə tanış ola bilmir. Çünki həkimlərin müayinə və müalicəsində olur. Bundan başqa, onda ürək ağrıları var. Onun 8-9 saat cinayət işi materialları ilə tanış olmasına vaxtı qalmır. Gün ərzində maksimum 5 saat iş materialları ilə tanış ola bilir. Cinayət işinin materialları da kifayət qədər genişdir. Hər cilddə 250 səhifə var. Onun hər gün 1000 səhifə oxumaq imkanı yoxdur.

***- MTN-də idarə rəisi işlədiyi dövrdə səhhətindəki problemlər normal çalışmasına imkan verirdi?***

- Həmin dövrdə də səhhətində problemlər olub. Akif Çovdarovu şəxsi həkimi nəzarətdə saxlayıb. O dövrdə qidalanması da fərqli olub. Həmin dövrdə gündə 5 dəfə ona ev şəraitində hazırlanmış yeməklər verilib. Gün ərzində 4-5 dəfə az-az olmaqla fasilələrlə yemək yeyib. Bakı İstintaq Təcridxanasında Akif Çovdarova digər təqsirləndirilən şəxslər kimi həftədə 1 dəfə sovqat qəbul olunur. Həmin sovqatda olan yeməklər isə qaldıqca boyatlaşır, bu isə Akif müəllimin səhhətinə ziyandır.

***- Bakı İstintaq Təcridxanasında saxlanılan Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyev oradakı kameralarda dözülməz istidən şikayətlənir. Akif Çovdarovun bu baxımdan vəziyyəti necədir?***

- Bu barədə məlumatsızam.

***- Belə məlumat var ki, kondisionerli otaqda saxlanılır.***

- Akif Çovdarovun ürəyində problemləri var, mədəsindən də əməliyyat olunub. Mədəsində xərçəng olduğuna görə mədəsini çıxarıblar, qida borusunu birbaşa bağırsağına birləşdiriblər. Sonuncu dəfə ekspertizadan keçiriləndə müəyyən olundu ki, bağırsağında yenidən iltihab var.

***- Akif Çovdarova Ombudsman Aparatindan baş çəkən olub?***

- Onun ailə üzvləri ombudsmana müraciət ediblər. Gələn olmayıb.

***- Akif Çovdarov sizinlə görüşə sərbəst gələ bilirmi?***

- Bu gün görüşə çox çətiniklə gəldi. Dedi ki, növbəti görüşə yeqin ki, gələ bilməyəcək.

***- Onu aclıq edən dustaq kimi qeydiyyata alıb həkim nəzarətinə götürüblərmi?***

- Akif Çovdarov tibbi-sanitar hissədə qalır deyə faktiki həkim nəzarətindədir.

***- Əvvəlki açıqlamalarınızda demişdiniz ki, Akif Çovdarovu tibbi-sanitar hissəyə köçürmürlər. Nə vaxt köçürülüb ora?***

- Bu ilin fevralından sonra köçürüblər.

***- Belə məlumatlar vardı ki, Akif Çovdarovun səhhətindəki problemlərin ictimailəşdirilməsi onun həbsdən azad edilməsi üçündür. Bu məlumatlarla tanışsınızmı?***

- Belə bir məsələdən xəbərsizəm.

***- Akif Çovdarovla əlaqədar cinayət işinin digər MTN-çilərin işindən ayrılaraq ayrıca icraata verilməsi nə ilə əlaqədardır?***

- Bu suala istintaq orqanı cavab verə bilər. Bunun bir çox səbəbi ola bilər. Azərbaycanda o boyda məhkəmə zalı yoxdur ki, o qədər şəxsi eyni vaxtda ora aparıb məhkəmə araşdırması aparılsın. Orada o qədər adamlar var ki, bir qurumda işləsələr də, bir-birilərinə aidiyyətləri olmayan şəxslərdir. Bir şəxsin ittihamının digərinə aidiyyəti yoxdur. Düşünürəm ki, işin ayrılması bu məsələ ilə bağlı ola bilər.

***- Akif Çovdarov onunla bərabər hakim qarşısına çıxarılacaq şəxsləri tanıyırmı?***

- Həmin 3 şəxs Akif Çovdarovun işçiləri olub.

***- Akif Çovdarov ittihamları qəbul edirmi?***

- Xeyr, o, ilk gündən ittihamları qəbul etmir.

***- Akif Çovdarovun Eldar Mahmudovun əleyhinə dolayısı ilə, birbaşa ifadələr verməsi haqda məlumatlar var. Bu məlumatlar nə dərəcədə doğrudur?***

- Bu haqda nəsə deyə bilmərəm. Bu istintaq sirridir.

***- Akif Çovdarovla Eldar Mahmudov üzləşdirilibmi?***

- Belə bir şey olmayıb.

***- Akif Çovdarovun yaxınlarının ölkədən çıxışlarına məhdudiyyət qoyulduğu və əmlaklarının əllərindən alındığı haqda xəbərlər var. Bu xəbərlər nə dərəcədə doğrudur?***

- Düzdür, Akif Çovdarovun ailə üzvlərinin - oğlunun, qızının və digər yaxınlarının ölkədən çıxışına qadağa qoyulub. Əmlaklarının əllərindən alınması isə məhkəmə qərarı ilə mümkündür. Belə məhkəmə qərarı isə yoxdur.

***- Əmlakların üzərinə həbs qoyulub?***

- Bu barədə məlumatsızam.

***- Mətbuatda Akif Çovdarovun oğurladığı şəxsləri özünə məxsus və Bakıətrafı kəndlərdən birindəki istixanadakı xüsusi düzəldilmiş, yerin altında olan şəxsi təcridxanada saxlaması haqda xəbər vardı. İstintaqçılar Akif Çovdarovun iştirakı ilə həmin yerə baxış keçiribmi?***

- İstintaq o yer yoxdur ki, ora gedib baxmasın. Belə bir yer olsa idi, tapardılar.

***- İş adamları, ən müxtəlif peşə sahibləri var ki, mətbuatda Akif Çovdarovun əməllərindən zərər çəkdiklərini bəyan ediblər. Akif Çovdarovun onları şəxsən təhdid etdiyini, döydüyünü, pullarını, mal-mülklərini əllərindən aldığını açıqlayıblar.***

- Belə ittihamlar yoxdur.

***- Necə yoxdur? 145-ci maddə - adam oğurluğu nə üçün ittihamda yer alıb?***

- İttihamın verilməyi o demək deyil ki, həmin fakt təsdiqini tapır. Akif Çovdarov ittihamları qəbul etmirik. Bu məsələlər məhkəmədə araşdırılacaq.

***- Akif Çovdarov məhkəmənin qapalı, yoxsa açıq keçirilməsini istəyir?***

- Belə bir sualla ona müraciət etməmişəm. İstənilən halda bu məsələ məhkəmənin səlahiyyətindədir.

***- Məhkəmə qərar qəbul edərkən Akif Çovdarovun da fikrini soruşacaq. Bu halda Akif Çovdarov nə deyəcək?***

- Bu məsələ məhkəmədə aydın olacaq.

***- Bu sualın yaranması Akif Çovdarovun ittihamları qəbul etməməsindən qaynaqlanır. Əgər Akif Çovdarov ittihamları qəbul etmirsə, deməli, ictimaiyyətdən gizli bir işi yoxdur və ictimailəşməsindən də çəkinmir, müvafiq olaraq məhkəmənin açıq keçirilməsini tələb etməlidir.***

- Bu məsələ ilə bağlı məhkəmədə münasibət açıqlayacaq.

***- Akif Çovdarovun həddən çox informasiyalı olması onun iş yoldaşı İlqar Əliyev kimi qəfil və müəmmalı ölümünə yol aça bilərmi?***

- Nə deyim? Hə və ya yox deyə bilmərəm. Bircə onu deyə bilərəm ki, səhhəti çox ağırdır, xəstədir. Avqustun 19-da başladığı aclıq aksiyası isə onun səhhətini daha da ağırlaşdırır.

***- Akif Çovdarova təzyiqlər var?***

- Şəxsən ona təzyiq yoxdur. Amma istintaq hərəkətlərinin bu şəkildə aparılmasını özünə təzyiq kimi qəbul edir. İstintaqdan tələb edirlər ki, qısa müddət ərzində işlə tanış olsun. Bunu özünə təzyiq kimi qəbul edir. Hər gün 3-4 cildlə tanış olmasının tələb şəklində ortaya qoyulmasını təzyiq sayır. Hesab edir ki, normal insan gün ərzində 1000 səhifə ilə tanış ola bilməz. Gündə 1 cildlə tanış olub oxumaq, qeydiyyat aparmaq olar. Bundan artıq cildlə tanış olmaq keyfiyyətli müdafiəyə problem yaradır.

***-Siz istintaqın qərarını mübahisələndirmək üçün addımlar atmısız?***

- Biz istintaqın həmin qərarından şikayət vermişik. Bu həftə ərzində Səbayel Rayon Məhkəməsində bizim şikayətə baxılacaq. Məhkəmə bizim şikayəti təmin etsə, iş materialları ilə əvvəlki qaydada tanış olacağıq. Olmazsa, işi avqustun 30-da yekunlaşdırıb göndərəcəklər məhkəməyə. Akif Çovdarov və digər təqsirləndirilən şəxslərlə bağlı cinayət işinə Bakı Hərbi Məhkəməsində baxılacaq.

Qeyd edək ki, A. Çovdarov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308.1-ci (məcəllənin bu maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə), 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunur.

❑ E.MƏMMƏDƏLİYEV

# "MTN işi"nə görə tutulan Vidadi Zeynalova yeni ittiham verildi

## Vəkil Ceyhun Yusifov: "Vidadi Zeynalov nazir, nazir müavini olmayıb, bu baxımdan ittihamları qəbul etmir"

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) həbsdəki aparat rəhbəri Vidadi Zeynalovun istintaq müddəti artırılıb və ona yeni ittiham elan olunub. Bu haqda redaksiyamıza daxil olan məlumatı dəqiqləşdirmək üçün V.Zeynalovun vəkili Ceyhun Yusifovla əlaqə saxladıq.**

Vəkil bildirdi ki, müvəkkilinə verilmiş köhnə və yeni ittihamlarla razı deyillər: "Vidadi Zeynalov ittihamları birmənalı şəkildə rədd edir. Vidadi Zeynalova qarşı irəli sürülmüş ittihamlar tam şəkildə əsassızdır. Ona qarşı Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308.1-ci maddəsi ilə (nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə) maddələri ilə ittiham elan olunsa da, ittihamların konkret əsası yoxdur. Vidadi Zeynalov ittihamlar üzrə günahsızdır. Maddi məsul şəxs deyil. Verilmiş ittihamların subyekti Vidadi Zeynalov ola bilməz. Vidadi Zeynalov nazir, nazir müavini olmayıb, bu baxımdan da ittihamları qəbul etmir".

**Vəkil bildirib ki, 1 aydan çoxdur ki, Vidadi Zeynalovun elementar hüquqları da pozulmaqdadır:** "Ona ailəsi ilə görüşə şərait yaradılmır, yaxınları ilə telefonla danışmağa imkan vermirlər. Təqsirləndirilən şəxslərin saxlanması haqda qanunun tələblərinə zidd olaraq əksər hüquqları tam şəkildə pozulur, əsassız olaraq bir çox məhdudiyyətlər tətbiq olunur. Səhhəti ilə bağlı heç bir tədbir görülmür. Həbsindən ötən aylar ərzində istintaqa Vidadi Zeynalovun günahının olmadığını sübut və dəlillərlə təqdim etmişik. Amma hər dəfə Vidadi Zeynalovun durumu daha da ağırlaşdırılıb, yeni ittihamlar irəli sürülüb".



**Vəkil bir neçə gün əvvəl müvəkkilinə yeni ittihamın irəli sürüldüyünü təsdiqləyib:** "Vidadi Zeynalova qarşı yeni ittiham Cinayət Məcəlləsinin 313-cü - vəzifə saxtakarlığı maddəsi ilə irəli sürülüb. Vidadi Zeynalov həbs edilən gündən bu günə qədər irəli sürülən ittihamlar tam şəkildə əsassızdır. Vidadi Zeynalov deyir ki, fəaliyyətində heç vaxt qanunsuzluqlara yol verməyib. O, verilən tapşırıqların icraçısı olub. Vidadi Zeynalov maddi məsul şəxs olmamaqla yanaşı, sərəncam vermək hüququna malik olmayan şəxsdir. Bu məsələlərin Vidadi Zeynalova aidiyyəti yoxdur".

V.Zeynalov 2004-cü ildən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri vəzifəsinə təyin edilib. O, nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməkdə, müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsində və israf edilməsini təşkil etməkdə ittiham olunur.

2015-ci ilin noyabrında Cinayət Məcəlləsinin 179.3.2-ci və 308.2-ci maddələri ilə ittiham olunaraq barəsində Binəqədi Rayon Məhkəməsi tərəfindən 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan sabiq aparat rəhbərinin həbs müddəti 4 ay olmaqla, 2 dəfə də artırılıb. Maraqlıdır ki, ötən ilin oktyabrında Rabitə və Yüksək Texnologiyalar Nazirliyində başladılan qəfil yoxlamalardan sonra nazirliyin rəhbər vəzifələrinin bir çoxu istintaqa cəlb olunublar. Aparat rəhbəri Vidadi Zeynalov, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynov və başqaları həbsə alınıblar. Yoxlamalardan sonra Əli Abbasov nazir postunu itirsə də, həbs olunmayıb.

Qeyd edək ki, Əli Abbasov MTN işi ilə bağlı məlumatlar ortaya çıxdıqdan sonra ötən il noyabr ayının 12-də prezident İlham Əliyev tərəfindən rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edilib.

❑ E.MƏMMƏDƏLİYEV

# "Qanun" nəşriyyatı fəaliyyətini davam etdirir

## Şahbaz Xuduoğlu: "Təhlükə tam aradan qalxıb"

**"Qanun" nəşriyyatında aparılan axtarışların üstündən iki ay keçdi. Bu müddət ərzində nəşriyyatın fəaliyyətinə ciddi maneələr yaransa da, hazırda "Qanun" fəaliyyətini davam etdirir.**



Bu barədə "Yeni Müsavat"a açıqlama verən nəşriyyatın rəhbəri Şahbaz Xuduoğlu bunları deyib: "İki ay öncə axtarış aparıldı, lakin nəşriyyatdan heç nə tapılmadı. Biz öz fəaliyyətimizi davam etdiririk. Aparılan istintaq barədə heç bir məlumatımız yoxdur. Bu barədə bizə heç nə deyilməyib. Sadəcə, proses belə başladı ki, axtarış apardılar, heç nə tapılmadı və çıxıb getdilər. İki gün nəşriyyat fəaliyyətsiz oldu. Mənfi tərəfi yalnız bu oldu. Kitab satışı çox zəifdir. Çünki yay vaxtı olduğundan insanlar istirahətə gediblər. Böyük boşluq yaranıb. İşləmək doğrudan da həddən artıq çətinləşib. Başqa aylara nisbətən bu ay işimiz daha çox zəifləyib. Həftənin şənbə və bazar günləri parklarda kitab yarmarkaları təşkil edirik. Milli Elmlər Akademiyasının qarşısında və Nərimanov parklarında yarmarkamız olur. Hazırda fəaliyyətimizlə bağlı heç bir təhlükə hiss etmirik. İşimizə mane olan hər hansı bir hərəkət yoxdur. İşlərimiz davam edir. Təhlükə tam aradan qalxıb".

Xatırladaq ki, "Qanun" nəşriyyatında bomba olması xəbəri iyunun 12-də yayılmış və elə həmin gün polis binanı mühasirəyə alaraq axtarışlar aparmışdı. Lakin binadan heç bir partlayıcı maddə aşkar olunmamışdı.

❑ Cavanşir ABBASLI

# Baş Prokurorluq, DİN və DTX Faiq Əmirovun həbsi ilə bağlı məlumat yaydı

## "Əli Kərimlinin köməkçisi "Azadlıq" qəzetinin maliyyə direktoru kimi öz qulluq mövqeyindən sui-istifadə edərək..."

**Respublika Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətləri AXCP sədrinin köməkçisi Faiq Əmirovun həbsi ilə bağlı birgə məlumat yayıb.**

APA-nın xəbərinə görə, məlumatda bildirilir ki, Fətullah Gülənin rəhbərlik etdiyi "Hizmət hərəkatı"nın Azərbaycanda "fətullahçılığı" təbliğ edən, sosial, dini nifrət və düşmənçiliyin salınmasına, vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına yönələn qanunazidd hərəkətlərinin araşdırılması və qarşısının alınması məqsədilə Respublika Baş Prokurorluğu tərəfindən cari ilin avqust ayının 12-də cinayət işi başlanılaraq Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

Bununla yanaşı, Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı mobil operatorların bəzi əməkdaşları tərəfindən əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərinin pozulması və vəzifə səlahiyyətlərindən sui-istifadə faktlarına görə Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə "Azərfon" MMC-nin operatoru vəzifəsində işləyən Azərbaycan Xalq Cəbhəsi Partiyasının Xətai rayon Gənclər təşkilatının sədri Fuad Əhmədlinin yaşadığı ünvana baxış keçirilib. Baxış zamanı digər maddi sübutlarla yanaşı, Fətullah Gülənin çıxışları, "Gülən camaatı" adlandırılan qrupun üzvləri və "Hizmət imam"ları adlandırılan şəxslər və onların qarşılıqlı əlaqələri barədə sənədlər, "fətullahçılığın" təbliğini nəzərdə tutan dini məzmunlu müxtəlif ədəbiyyat, elektron informasiya daşıyıcıları aşkar edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin ekspertləri tərəfindən həmin


Faiq Əmirov

maddi sübutların məzmununda sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına yönələn çağırışların olması barədə rəy verilib.

Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində eyni məzmunlu cinayət işinin istintaqının aparılması ilə əlaqədar Fuad Əhmədlinin barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin icraatında olan cinayət işi ibtidai istintaqın davam etdirilməsi üçün Baş Prokurorluğa göndərilərək vahid icraatda birləşdirilib.

Davam etdirilən istintaq zamanı Azərbaycan Xalq Cəbhəsi Partiyasının daha bir üzvü - partiya sədrinin köməkçisi Faiq Əmirovun "Azadlıq" qəzetinin maliyyə direktoru kimi öz qulluq mövqeyindən sui-istifadə edərək "Hizmət hərəkatı"nın təəssübkeşləri ilə birlikdə, məzmununda "fətullahçılığ", sosial və ya dini nifrət və düşmənçiliyin salınmasını təbliğ edən, milli ləyaqətin alçaldılması məzmunlu ədəbiyyatı və elektron informasiya daşıyıcılarını yaymaq məqsədilə saxlamasına, habelə öz adının və mobil telefon nömrələrinin olduğu "Hizmət imam"ları siyahısında adları qeyd olunan şəxslərlə də qarşılıqlı əlaqələrinə dair əsaslı şübhələr müəyyən olunub. Bu baxımdan, cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən F.Əmirovun yaşadığı ünvanda və avtomobilində həyat yoldaşının, eləcə də özünün dəvət etdiyi hal şahidlərinin və "Azadlıq" qəzetinin əməkdaşı Təzəxan Mirələmlinin iştirakı ilə axtarış aparılıb. Faiq Əmirov dindirilmə prosesinə cəlb edildiyindən, avtomobilinin açarlarını Təzəxan Mirələmliyə şəxsən təqdim edib və sonuncu onun həyat yoldaşının və hal şahidlərinin iştirakı ilə avtomobilin qapılarını və yük yerini açıb.

Axtarış zamanı avtomobildən idxalına müvafiq razılıq tələb edilən Fətullah Gülənə həsr olunmuş 3 kitab, onun xütbələrinin videoyazısı olan 8 disk, mənzilindən isə "Azadlıq" qəzeti redaksiyasının qaimə-fakturalarının toplandığı 2 sellofan torba, elektron informasiya daşıyıcıları və iş üçün əhəmiyyət kəsb edən digər əşyalar aşkar edilərək maddi sübut kimi götürülüb.

Faiq Əmirov Cinayət Məcəlləsinin 168.1-ci (Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) və 283.2.2-ci (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) maddələrində nəzərdə tutulan əməlləri törətməkdə təqsirləndirilən şəxs qismində cəlb olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

"Hizmət hərəkatı"nın Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən mənsublarının xarici ölkələrdə, o cümlədən Türkiyədə olan tərəfdaşları ilə əlaqələrinin, maliyyələşmə mənbələrinin, üsullarının və digər xüsusatların müəyyənləşdirilməsi məqsədilə, Avropa Konvensiyasının tələblərinə müvafiq olaraq Türkiyə Respublikası ərazisində istintaq hərəkətlərinin həyata keçirilməsi barədə həmin ölkənin baş prokuroru qarşısında vəsatət qaldırılıb. Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək istintaqa cəlb olunmaları istiqamətində zəruri prosessual hərəkətlər və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

# “Onların dediyini eləsək, bəzi rayonlar qayıdacaq, amma müstəqillik gedəcək”

## Hikmət Hacızadə: “Bu dövrdə müxalifət neyləsin?”

**Son aylarda Azərbaycan və dünyada ciddi proseslərin getdiyinin şahidi oluruq. Xüsusilə Dağlıq Qarabağ probleminin həlli istiqamətində müsbət gəlişmələr var. Qardaş Türkiyədə 15 iyul qiyamından sonra cərəyan edən hadisələri, həmin proseslərin artıq Azərbaycana doğru yönəlməsi, yəni ölkəmizdə də Fətullah Gülən tərəfdarlarının həbsi, eləcə də gələn ay keçiriləcək referendumu bu silsilədən hesab etmək olar. Baş verən hadisələrlə bağlı tanınmış politoloq Hikmət Hacızadədən durum dəyərləndirməsi aldıq.**

### “Rusiya-Türkiyə münasibətləri hələ düzəlməyib”

***- Hikmət bəy, sentyabrın 26-da referendum keçiriləcək. Müxalifət proseslərdə passiv təsir bağışlayır. Sizcə, bu hal nə qədər sürəcək?***

- Müxalifət repressiya altındadır. Bu dövrdə müxalifət neyləsin? Bir yerə toplaşa bilmir, iclas keçirmək imkanı yoxdur. Siyasi fəallar həbs edilir. Artıq ictimai aktivlikdən danışmaq çətindir. Buna, sadəcə, təəssüf edirəm. Çətin vəziyyətdə müxalifət hansısa addımlar atmağa çalışır. Dağılmayan, satılmayan, mübarizəni davam etdirənlər var. Amma indi mənəvi mübarizə mümkündür. İdeyaların yayılmasını, təbliğatı yaxşı qurmaq lazımdır. Bundan savayı indiki vəziyyətdə açıq fəaliyyət üçün başqa imkan görmürəm. Xalq özü müxalifət olmalıdır. Xalq da susdurulub. Aktiv hissə ölkəni tərk edib. İşsizlik, böhran hökm sürür. Bütün bunlar ölkəni iflic vəziyyətə gətirə bilər. İqtisadiyyatda bunun təzahürlərini görürük ki, sonda idarəçilikdə problemlər yaranacaq, hətta ölkə çökə də bilər. Artıq məsələ siyasət, kreslo məsələsi deyil. Ölkənin gələcəyi gündəmdədir. Keçiriləcək referendumun müsbət tərəflərini görmürəm. Azərbaycanın zədələnmiş imicinə növbəti zərbədir. Əgər Qarabağı qaytarmaq istəsək, bu, hərbi yolla çətin olacaq. Sülh yolu ilə azad etmək istəyiriksə, bizə demokratik imic lazım olacaq. Bu da yoxdur. Bunların hamısı sülh danışıqlarında arqument kimi önümüzə qoyulacaq. Bunu düşünmək lazımdır. Qarabağ məsələsinin həlli qəlizləşəcək. Gələcəkdə bizi böyük təhlükələr gözləyir.

***- Vitse-prezident postlarının yaradılmasını Azərbaycanın Amerika sisteminə dönməsi kimi qəbul etmək olarmı?***

- Heç bir əlaqəsi yoxdur. Bu post çoxsaylı ölkələrdə var. Mənasız bir şey olduğunu düşünürəm. Nədən ortaya atıldığını bilmirəm. Mənasını hələ anlamıram. Görünür, ölkə rəhbərliyi heç kəsə etibar etmir. Bu institutla da ola bilsin ki, özünün tam təhlükəsizliyini təmin etsin.

***- Türkiyədəki hərbi qiyamdan artıq bir ay ötüb. Bu müddət qardaş ölkə üçün necə keçdi?***

- Hələ ki müsbət heç nə görmürəm. Gördüyüm odur ki, orada təmizləmə gedir. Çevrilişçiləri təqib edirlər, bununla razıyam. Amma kütləvi şəkildə ziyalıların işlərindən azad olunmaları, həbs edilmələri acı nəticələr verə bilər. Ölkə yavaş-yavaş birpartiyalı sistemə doğru yönəlir. Bu, gələcəkdə siyasi böhranlara yol aça bilər. Qərblə münasibətlər isə getdikcə gərginləşir. Səhəri Türkiyəyə borc lazım olacaq. İndiyə qədər qardaş ölkə mütəmadi Qərbdən borc alır, istifadə edir və qaytarırdı. Amma bundan sonra Qərb borc verəcəkmi? Bax bu sual müəmma yaradır. Hansısa bir beynəlxalq təşkilat Türkiyənin investisiya reytinqini aşağı sala bilər. Nəticədə ölkəyə gələn maliyyə gəliri azalar. Belə təhlükələr var. Türkiyəni də iqtisadi tənəzzül gözləyir.

***- Türkiyə Rusiya ilə gərginliyi aradan qaldırdı. Bunun region və Qarabağ üçün hansı təsirləri ola bilər?***

- Rusiya ilə Türkiyənin münasibətləri hələ düzəlməyib. Bunlar, sadəcə, diplomatik gedişlərdir. Ərdoğan Rusiyaya getdi, bəzi məsələləri danışdılar. Suriya məsələsi ilə bağlı mətbuat yazır ki, onlar hansısa razılığa gəliblər. Bu düzgün fikir deyil. Suriya məsələsində Ərdoğanla Putin heç bir razılığa gəlməyiblər. Görüşün sonunda o məsələ müzakirə edildə Ərdoğan deyib ki, Bəşər Əsəd getməlidir. Putin isə deyib ki, qalmalıdır. Əsas məsələ budur. Doğrudur, onlar antiterror əməliyyatlarında birgə iştirak etmək üçün razılığa gəliblər. Amma əsas məsələ Bəşər Əsədin getməsidir. Ərdoğanın Bəşər Əsədin getməsi ilə bağlı fikirlərini nədənsə, Azərbaycan və Rusiya mətbuatı unutdu. Elə təqdim edirlər ki, Ərdoğan guya rus tərəfə keçib, amma elə bir şey yoxdur. Türkiyənin Rusiya tərəfə getməyə imkanı yoxdur. Sadəcə, meyllənmə var. Bu da gələcək baxımından, yuxarıda qeyd etdiyim kimi, təhlükələr yarada bilər. Səhəri gün Türkiyə Qərbdən borc istəyəndə cavab gələcək ki, gedin, borcunuzu Putindən alın. Amma Putinin imkanı yoxdur ki, Qərbi əvəzləsin. Rusiya-Türkiyə arasında söz-söhbətlərdə müxtəlif vədlər, iqtisadi layihələr ola bilər. Lakin unutmaq olmaz ki, Türkiyənin iqtisadi və maliyyə sistemləri Qərb sistemlərinə bağlıdır. Bu baxımdan, Türkiyəni Qərbdən ayrı görmürəm.

***- Son aylarda Dağlıq Qarabağ probleminin həlli istiqamətində gedən prosesləri necə dəyərləndirirsiz?***

- Prosesləri müsbət qiymətləndirirəm, xüsusilə aprel əməliyyatlarını. Amma bir şeyi unutmaq olmaz ki, Qarabağ məsələsi və bu məsələ ətrafında gedən proseslərə hələ ki Rusiya nəzarət edir. Onlar da deyirlər ki, bəs kömək edəcəyik, filan rayonları qaytaracağıq. Amma əvəzində rus qoşunlarının yenidən Azərbaycana qayıtmasını istəyirlər. Onu da Azərbaycan istəmir. Çünki rus qoşunu burada olsa, Qarabağ biryolluq gedir. Necə ki, Abxaziya, Cənubi Osetiya getdi. Konkret Dağlıq Qarabağdan yox, başqa rayonların qaytarılması ilə bağlı danışıqlar gedir. Amma rus qoşunlarının Azərbaycana gəlməsi məsələsinin gündəmdə olması danışıqları pozur. Belə bir şey olsa, bunu ərazi bütövlüyümüzə, müstəqilliyimizə xəyanət kimi qəbul edərəm.

***- Rusiyada Ərdoğan-Putin görüşünü, Azərbaycanda isə İlham Əliyev-Putin-Həsən Ruhani görüşlərini ermənilərin təklənməsi, Qarabağ probleminin həllində müsbət amil kimi qəbul etmək olarmı?***

- Ermənistan təklənmir. Onsuz da Ermənistan Rusiyanındır. Bu görüşlərdən heç onlar narahat da deyillər. Çünki rusların əlaltısı olmağı qəbul ediblər. İndi Rusiya Azərbaycanı bu vəziyyətə salmaq istəyir. Onların dediklərini eləsək, bəzi rayonlar qayıdacaq, amma müstəqillik əldən gedəcək. Amma bir az gözləsək, özümüz möhkəmlənsək, islahatlar aparılsa, cəmiyyət birləşsə, o zaman istədiyimizə nail olarıq. Rusiya günü-gündən zəifləyir. Çünki Qərblə vuruşur. Orada güclər qeyri-bərabərdir. Qərb 20 dəfə Rusiyadan güclüdür. Zamanı gözləmək lazımdır. O zaman tamamilə yeni situasiya yaranacaq.



### “Klinton gəlsə, çox şey dəyişə bilər”

***- Qarşıdan dünya siyasətini dəyişə biləcək Amerikada prezident seçkiləri gəlir. Barak Obamanın gedişi, Hillari Klinton, yaxud Donald Trampın gəlişi nə vəd edir?***

- Düşünürəm ki, Hillari Klinton qalib gələcək. Trampa səs verməyəcəklər. Təxminən Obamanın apardığı siyasət davam edəcək. Çünki onun siyasəti Amerikanın Demokratlar Partiyasının siyasətidir. Orada tək prezident hər şeyi həll etmir. Amma daha gərgin, daha şiddətli siyasət olacaq. Obama yumşaq siyasət yürüdürdü. Nə Suriya məsələsini, nə də digər məsələləri həll etdi. Xarici siyasətdə xüsusən yumşaq siyasət yürüdürdü. Amma Klinton belə siyasətçi deyil. İnşallah da belə olmayacaq. Ondan sonra çox şey dəyişə bilər. Klinton gəlsə, çox şey dəyişə bilər. O çox cəsarətli qadındır.

***- Dünya siyasətinin əsasını hazırda Suriya və İŞİD məsələsi təşkil edir. Bu problemlər qarşıdakı aylarda həllini tapacaqmı?***

- İŞİD-i xeyli zəiflətmək mümkündür. Amma radikalları aradan götürmək çox çətindir. Onlar zəif formada olsa da qalacaqlar. “Taliban”çıların üzərinə düşdülər, amma onlar yenə də yaşayırlar. Onlar heç də qüdrəti deyillər. Amma məhv də olmurlar. İŞİD da təxminən o vəziyyətə gətiriləcək.

***- “Rövşən Lənkəranski”nin qətli ölkənin əsas mövzusuna çevrilib. Bu, xalqın “oğru aləmi”nə olan marağından doğur?***

- Onun öldürülməsinin pisləyirəm. Qətlinin səbəbini bilmirəm. Ölkəmiz o həddə çatdırılıb ki, mənəvi dəyərlərimiz tamamilə dəyişib. Burada haqq-ədalət axtaran gedir “vor zakon”un yanına. Nə hökumətin, nə partiyaların, nə də mətbuatın yanına getmirlər. Bir “vor zakon” qalır ki, ondan imdad istəyirlər. Hüquq və əxlaq sistemimiz korlanıb, tamamən dəyişib.

***- Kriminal aləmdə “Lənkəranski” kimi bir azərbaycanlının olması vacibdirmi?***

- O qədər də vacib deyil. Bizə ölkəni qabağa aparan mütəxəssislər, ictimai fiqurlar, alimlər lazımdır. Buna da imkan verilmir. Qalıb “vor zakon”lar. Belə bir yeni azərbaycanlı “vor zakon” istəmirəm. İstedadlı, əqidəli ictimai xadim istəyirəm. Rövşənin qətli ilə bağlı heç bir təxminim yoxdur. Çünki o aləmlə maraqlanmıram. Demirəm ki, o aləmdən xəbərsizəm, sadəcə, məlumatım azdır. Ola bilər ki, Rövşəndən intiqam alıblar, yaxud rəqabət də ola bilər. Sferaları bölmək məsələsi də istisna edilməməlidir. Öncəliklə bu fikirlər beynimə gəlir. Başqa heç nə deyə bilmərəm. Onun ölümünün Rusiyadakı azərbaycanlılara ciddi təsir edəcəyi barədə fikirlərlə razı deyiləm. Orada 2 milyona yaxın azərbaycanlı yaşayır. Rövşən kiçik aləmə rəhbərlik edirdi. Bundan əlavə, Rövşəndən başqa da orada kriminal avtoritetlərimiz var. Bu aləmdə vəziyyətimiz o qədər də pis deyil. Sadəcə, siyasi xadimlərdən, ekspertlərdən, azad mətbuatın olmamasından qıtlıq çəkirik. Bunlar daha çox məni narahat edir. Kriminal aləmdə nələrin baş verdiyi məni maraqlandırmır.

***- Fətullah Gülən tərəfdarlarının həbsi artıq Azərbaycana da keçdi...***

- Bir daha Türkiyədəki çevriliş cəhdini qətiyyətlə pisləyirəm. Bu cəhddə iştirakçı olanlar mütləq cəzalandırılmalıdır. Amma görürəm ki, bununla bağlı günahsız şəxslər də həbs olunurlar. Məni narahat edən budur. Siyasi fikirlərinə görə insanlar işlərini itirirlər, həbslərə məruz qalırlar. Özü də kütləvi şəkildə. İndiyə qədər on minlərlə şəxs saxlanılıb. Kimin o çevrilişdə iştirakı varsa, sübut olunmalı, sonra həbs edilməlidir. Gülənin kitabını oxuyan şəxsə heç bir cəza düşmür. Artıq bu proseslər Azərbaycana da keçib. Özü də Türkiyədəki ilə eynilik təşkil edir.

***- Son sualım, Azərbaycandakı “MTN inqilabı”nın 10 ayı tamam oldu. Bu sahədə olan problemlər bitdimi?***

- Bu barədə olan məlumatlar o qədər qaranlıq və sirlidir ki, bir şey demək çətindir. Bir qrup şəxs vəzifəsindən uzaqlaşdırıldı, onları başqa bir qrup əvəz etdi. Yeni heyətin özlərini necə aparacağını zaman göstərəcək. Bizim kimi ölkələrdə onlar dövlət içində dövlətdirlər. Çünki nə istəyirlər edirlər, onlara ciddi nəzarət də yoxdur.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016



# Tərbiyə görməyən bədənlər

Zamin HACI
zaminhaci@gmail.com

**Olimpiada qurtardı, ancaq yapistlərin şouları hələ indi başlayır. Yenə uca millətimizin baş-beyni Azərbaycanın idman ölkəsi olması, dövlətin idmançılara yüksək diqqət və qayğısı temasında silsilə verilişlər, reportajlarla dəlmədeşik ediləcəkdir. Olimpiadaya yollananlardan neçəsinin legioner olmasına heç fikir verilməyəcəkdir. Ancaq faktlar, həyatımız idmana, bədən tərbiyəsinə ölkədə həqiqi diqqətin sıfırdan aşağı olmasını göstərir.**

Əgər idmana qayğı dedikdə hansısa güləşçiyə şübhə doğuran formada qələbə qazandırıb - peşəkar idmanda çirkli pulların böyük rol oynaması artıq sirr deyil - sonra onu ölkə əhalisi üçün çox fantastik məbləğlərdə mükafatlandırmaq, yol polisinə, gömrüyə-zada işə qoymaq nəzərdə tutulursa, əlbəttə, yapistlərin idmana qayğısı var. O cümlədən içi təzək, çölü bəzək olimpiya kompleksləri qayırmaq həmin ölçülərlə idmana qayğı sayıla bilər. Lakin dövlətin idmana qayğısı, məncə, bu cür sabun köpüyü effektli hərəkətlərlə ölçülməz. İdman hər bir vətəndaş üçün əl çatan olmalıdır. Hər bir azərbaycanlının idmanla məşğul olmaq, öz potensialını açmaq imkanları yaradılmalıdır. Bunlar yoxdursa, dövlətin idmana qayğısı, Azərbaycanın idman ölkəsi olması əfsanədən, boşboğazlıqdan o yana getmir. İzah edəcəyəm.

Bakı məhəllələrindən birində uşaqlarımın oxuduğu məktəb var. Orda idman dərsləri demək olar keçilmir. Çox formal dərslərdir. Qabaqlar məktəbin böyründə bir qumluq vardı, uşaqlar yalandan da olsa orda uzunluğa tullanırdılar. Son təmirdə ora da asfaltlandı. İndi idman dərsləri o asfaltın üstündə keçilir. Birinci sinfi bitirib ikinci sinfə keçən oğlum 1 dəfə də olsun idman dərsində iştirak etmədi, baxmayaraq proqramda, dərs cədvəlində həftədə azı 1 "Bədən tərbiyəsi" dərsi yazılmışdı. Müəllim həmin dərsin yerinə də... "Riyaziyyat" keçirdi, valideynlərin guya razılığı ilə. Şəxsən mən belə razılıq verdiyimi xatırlamırdım. Guya uşaqlar əlavə riyaziyyat keçsələr, bu, onlar üçün xeyirlidir. Əslində mən yaşlı qadın müəlliməni qınamırdım da, o, istəsə belə uşaqlara idman dərsi keçə bilməzdi.

Bu durum ölkənin nadir istisnalarla bütün məktəblərində eynidir. Uşaqlar üçün məktəb idman zalları, üzgüçülük hovuzları, başqa idman qurğuları yoxdur. Bədən tərbiyəsi dərsini çox vaxt başqa ixtisası bitirən müəllimlər başdansovdu yola verirlər. Uşaqların idman normativlərini yerinə yetirməsi, istedadlı məktəblilərin seçilməsi, məktəb idman komandalarının yaradılması və sairə xəyaldan başqa bir şey deyil. Test imtahanlarında ən aşağı keçid ballarından biri adətən Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbulda olur.

Halbuki bir çox Avropa dövlətlərində məktəblilər gündə 2 saat idman dərsi keçirlər! Uşaqlara üzgüçülükdən tutmuş futbola, gimnastikadan müxtəlif yüngül atletika növlərinə qədər - hamısını proqram əsasında, ən vacibi isə pulsuz dövlət təhsilinin tərkibində öyrədirlər.

Uydurma daş parkları salınır, orda da idman qurğusuna nadir halda rast gəlirsən. Adicə qaçış zolaqları düzəltmək çətindirmi? Asfalt örtüklər qranitlə, sürüşkən mərmərlə əvəzlənir, nəticədə adam qaçanda ayaqları ağrıyır, zədə almaq ehtimalı artır. Bakıda 5-10 kilometr uzunluqda qaçış üçün elementar düz səkiləri olan təhlükəsiz küçə tapmaq çətindir.

İdmanın inkişafı, idman ölkəsi sayılmaq üçün iqtisadi azadlıqlar, gerçək sponsorluq lazımdır. Bizdə isə hər idman növünə bir naziri, məmuru qapazlayıb sponsor qoyurlar, o da kefi istəyəndə pul verir, vəziyyəti xarablaşanda vermir. *(Cüdoya Füzuli Ələkbərovun, ağır atletikaya Cahangir müəllimin, furbola Hafkanın münasibətini xatırlasanız bəsdir).*

ABŞ yazıçısı Con Apdaykın "Qaç, Dovşan, qaç" romanının qəhrəmanı bir gün ailəsindən bezib evdən qaçır və kimin yanında sığınacaq tapsa yaxşıdır? Orta məktəbdə ona basketbolu öyrədən sevimli idman müəlliminin. Amerikalıların idman kultunun, hər yarışda az qala medalların yarısını süpürləyib aparmaqlarının kökündə belə detallar dayanır. Mən romanı çoxdan oxumuşam, ancaq heç yadımdan çıxmır və hərdən düşünürəm ki, görəsən bizdə dara düşəndə idman müəllimini yada salan neçə nəfər olar. Neçə idman müəllimi adama qapı açar?

# Türkiyənin NATO üzrə əsas müttəfiqi yol ayrıcında

**ABŞ-Türkiyə münasibətlərində 15 iyul çevriliş cəhdi ilə başlanan gərgin dönəm aydınlaşmağa və durulmağa üz tutub. Xəbər verdiyimiz kimi, artıq iki gündür Fətullah Gülənin ekstradisiyası məsələsi ilə məşğul olan ABŞ-ın Ədliyyə Nazirliyi və xarici siyasət idarəsi təmsilçilərindən ibarət 4 nəfərlik nümayəndə heyəti Türkiyədədir. Onlar rəsmi Ankaranın ekstradisiya tələbi üçün hüquqi əsasların yetərli olub-olmadığını dəqiqləşdirməklə məşğuldur.**




## "Gülən işi"ndə kritik dönüş - ABŞ iki qiymətli əzizinin birindən imtina edir

### Ankaranın Ağ Evə seçim üçün verdiyi vaxt tamama yetir, ekstradisiya ilə bağlı danışıqlar bu gün bitir; Vaşinqton ya Güləndən, ya da... Türkiyədən vaz keçməlidir; gözlər Baydendə, Amerika desə ki...

Avqustun 24-də, yəni bu gün araşdırmaların bitəcəyi gözlənilir. Səfərin sonuncu günü nümayəndə heyətinin Türkiyə rəsmi şəxsləri ilə görüşləri nəzərdə tutulub. Eyni gündə - avqustun 24-də isə Birləşmiş Ştatların vitse-prezidenti Co Bayden Türkiyəyə gələcək. Gözlənilir ki, məhz vitse-prezident Gülən məsələsi ilə bağlı mühüm bəyanatı verəcək.

Baydenin Türkiyəyə səfər proqramı da açıqlanıb. «Report» «Haberturk»ə istinadən bildirir ki, səfərinin sonunda onu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul edəcək. Lakin Co Bayden öncə Türkiyə Böyük Millət Məclisinə (TBMM) gedərək parlamentin sədri İsmail Kahramanla mediaya qapalı görüş keçirəcək. Görüşdən sonra iyulun 15-də dövlət çevrilişinə cəhd gecəsi bombalanan TBMM-in binasını gəzəcək. Nahardan sonra amerikalı ali qonaq baş nazir Binəli Yıldırımla Çankaya iqamətgahında təkbətək görüş keçirəcək. Görüşdən sonra onlar mətbuat üçün açıqlama verəcəklər.

Prezident iqamətgahında Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan da amerikalı qonaqla təkbətək görüş keçirəcək. Media üçün qapalı olacaq bu görüş başlamazdan əvvəl KİV təmsilçilərinə yalnız foto çəkməyə icazə veriləcək. Elə həmin gün axşam saatlarında Co Baydenin səfəri başa çatacaq.

*****

Maraqlıdır ki, dünən Avropa Birliyi də 39 günlük fasilədən sonra Türkiyəyə nümayəndə heyəti göndərib. Bu barədə Avropa Parlamentinin Brüsseldəki ofisindən bildirilib. Avroparlamentin Türkiyə üzrə məruzəçisi Kati Pirinin ofisindən yayılan yazılı açıqlamada deyilir ki, Piri və Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Elmar Brok Türkiyədə görüşlər keçirəcək. Fətullahçı terror təşkilatının (FETÖ) bu il iyunun 15-də dövlət çevrilişinə cəhdindən sonra Ankaraya gerçəkləşən bu səfər avqustun 25-dək davam edəcək. Məqsəd Türkiyədəki mövcud vəziyyət barədə məlumat əldə etməkdir.

Avropadan olan səfər ABŞ-dan yüksək çinli nümayəndə heyətinin ziyarəti fonunda heç də təsadüfi görünmür. Bu yerdə yada salaq ki, Türkiyə Avropa Birliyini və Avroparlamenti də terror məsələsində Ankaraya yetərincə dəstək verməməkdə günahlandırır və bu təşkilatları dövlət çevrilişinə cəhddən sonra ölkəyə səfər reallaşdırmamağa görə tənqid edir.

*****

Beləliklə, həm ABŞ-ın, həm də Avropa Birliyinin Türkiyəyə xüsusi önəm verdiyi bir daha üzə çıxır. Bu da məntiqlidir - çünki qardaş ölkə Qərb üçün, NATO üçün regionda vazkeçilməz bir ölkədir. O üzdən Vaşinqton və Brüssel Ankara ilə körpüləri bərpa etməkdə indi xeyli dərəcədə qətiyyətli görünür və düz də edirlər. Xüsusən də nəzərlər Amerikaya, Co Baydenin Türkiyə səfərində verəcəyi açıqlamalara dikilib.

Ola bilsin qapalı görüşlərdəki anlaşmaların mahiyyəti dərhal bəlli olmasın. Lakin Türkiyə ali rəsmilərinin, xüsusən də prezident Ərdoğanın jest və açıqlamalarından ilkin qənaətləri hasil eləmək elə də çətin olmayacaq yəqin ki. İstənilən halda məhz bu gün iki dövlət, yaxud iki köhnə müttəfiq arasında bitmiş "Gülən problemi" ilə bağlı yekun qərarın konturları görünəcək.

Bəs "Gülən işi"ndə kritik dönüş olacaqmı?

Böyük ehtimalla, bəli. Ona görə ki, Ağ Evə seçim üçün ayrılan vaxt limiti tükənib: Vaşinqton bütün hallarda nədənsə imtina eləməli, necə deyərlər, hazırda ona əziz olan iki qiymətli subyektdən birindən vaz keçməlidir - ya Güləndən, ya da nə qədər ağır və riskli olsa da... Türkiyədən. Seçim - Ağ Evindir.

*****

Onu da xatırladaq ki, F.Gülənin özü ABŞ-ın onu Türkiyəyə verməyəcəyinə inanır. Gülən deyib ki, Ankaranın təqdim etdiyi materiallarda onun ekstradisiyası üçün qanuni əsaslar tapılmayacaq. Ancaq ötən sayımızda da altını cızdığımız kimi, "Gülən işi" nə qədər hüquqi prosedura kimi təqdim edilsə də, artıq o, həm də siyasi məsələyə çevrilib. Siyasi məsələni isə siyasi hakimiyyətlər həll edir.

❑ **Siyasət şöbəsi**

# Azərbaycanlı oliqarxın erməni ilə sensasion yazışması üzə çıxdı

## "Araşdır, məni kim "zakaz" edib..."



**Moskvanın daşınmaz əmlak kralı, Azərbaycan əsilli milyarder Qod Nisanovla qalmaqallı jurnalist-biznesmen, lifenews.ru saytının redaktoru Aram Qabrielyanov arasında sensasion yazışma açıqlanıb.**

Virtualaz.org xəbər verir ki, bu yazışma "Anonim beynəlmiləl" adlı haker qrupunun lifenews.ru -nun bəzi əməkdaşlarının, o cümlədən Aram Qabrielyanovun elektron poçtunu "sındırması" nəticəsində üzə çıxıb.

"The Moskow Post" bildirir ki, yazışmada azərbaycanlı milyarder-oliqarx Aram Qabrielyanovdan xahiş edir ki, Ren TV telekanalında onun Moskvadakı nəhəng topdansatış ərzaq bazası "Food City" haqda tənqidi reportajını kimin sifariş etdiyini araşdırsın.

Reportajda "Food City"də saxta alkoqollu içkilərin topdansatışından bəhs olunurdu. Həmin içkidən ötən il Moskvada bir neçə nəfər zəhərlənərək ölüb. Güc strukturlarının əməkdaşları saxta içkinin mənbəyinin "Food City" olduğunu müəyyənləşdirib. Habelə reportajda deyilirdi ki, "Food City" Moskvanın yeni "Çerkizon"una çevrilib. Bazardan atılan zir-zibil ətrafı bürüyüb, antisanitariya hökm sürür.

Xatırladaq ki, "Food City" Qod Nisanov və Zarah İliyevə, habelə onların ortağı, Putinin tələbəlik dostu kimi tanınan İlham Rəhimova məxsusdur. "Üçlük" Moskvada digər çoxsaylı kommersiya daşınmaz əmlaka da malikdir. Bura "Sadovod" bazarı, "Ukrayna" hoteli, "Lotos" ticarət mərkəzi və digərləri daxildir.

E.mail yazışmalarından məlum olur ki, Qod Nisanov Ren TV-də onun bazarı haqda gedən süjetdən qəzəblənib və sifarişçini tapıb cəzalandırmaq istəyir. "The Moskow Post" yazır ki, yazışma 2015-ci ilin noyabr və dekabr aylarında olub. Qod Nisanov süjetin videolinkini Qabrielyanova göndərir və soruşur: "Maraqlıdır, görəsən, bizi kim sifariş edib?" Qabrielyanov isə cavab verir ki, məsələni araşdıracaq və sifarişçini üzə çıxaracaq. Növbəti məktubda isə Qabrielyanov yazır ki, sifarişçini tapıb və barəsində bütün materialları toplayıb. Nisanov isə bildirir ki, həmin adamın "Rossiya 24" telekanalına da onun və"Food City"nin barəsində geniş material ötürmək istədiyini bilir.

Qeyd edək ki, Aram Qabrielyanov Dərbənddə Zəngəzur ermənilərinin ailəsində anadan olub. Mediamaqnatdır və bir çox qalmaqallarda yer alıb. Ona məxsus KİV-lər vaxtaşırı olaraq Dağlıq Qarabağdan erməniləri təbliğ edən reportajlar yayır.

# "ABŞ Putinin Qarabağ planını durdurmaq istəyir" - ekspertdən şok iddia

## Qabil Hüseynli: "Amerika əslində bilir ki, bu plan problemi tam həll edəsi deyil, əksinə, münaqişənin yenidən alovlanmasına gətirə bilər..."

**ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan sabiq həmsədri, uzun müddət danışıqlar prosesinin içində olmuş Metyu Brayza ABŞ-ın "Atlantik Council" beynəlxalq əlaqələr sahəsində qeyri-hökumət analitik mərkəzinin saytında yerləşdirilmiş məqaləsində bildirib ki, əgər Vladimir Putinin Qarabağ planı reallaşsa, o zaman Amerikanın Kremli Güney Qafqazdan sıxışdırıb çıxarmaq strategiyası iflas olacaq.**




Brayzanın məqaləsində bu xüsusda daha bir detal diqqət çəkir. Keçmiş diplomat yazıda iddia edir ki, Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburq görüşündə Putin tərəflərə irəliyə doğru tədricən hərəkət eləməyi təklif edib. Yəni öncə Ermənistan iki rayonu qaytarmalı, Azərbaycan isə qarşılığında nəqliyyat əlaqələrini və Ermənistanla iqtisadi əlaqələri açmalıdır.

Diplomatın yazısından hasil olan əsas qənaət odur ki, ABŞ tərəfi doğrudan da problemin sırf Rusiyanın nəzarəti altında qalması və getməsindən, yumsaq desək, məmnun deyil.

Təsadüfi deyil ki, Brayza məqaləsinin sonunda Vaşinqton hökumətini Qarabağ məsələsində fəal olmağa çağırır.

Keçmiş həmsədrin məqaləsinin məhz indi işıq üzü görməsi də təsadüfə bənzəmir və Türkiyə-Rusiya barışığını da nəzərə alsaq, hiss olunur ki, rəsmi Bakıda, bütövlükdə Azərbaycan toplumunda Moskvanın uğurlu vasitəçiliyinə və konturları görünən yeni Moskva-Ankara-Bakı formatına şübhə yaratmaq məqsədi güdür. Yəni ki, Rusiyaya ümid etməyə dəyməz, nicat yolu ABŞ-la, Qərblə bağlıdır.

Bundan əlavə, Putinin tərəflərə 5 rayon deyil, 2 rayon təklif etməsi də yeni məqam kimi görünür. Görəsən, Brayza qapalı rejimdə keçmiş danışıqların detallarını haradan bilir? Ümumiyyətlə, Putin 2 rayon söhbəti edibmi? Brayzanın ABŞ-ın narahatlığını yazısı ilə sezdirməsi onu deməyə əsas verirmi ki, bu dəfə də Qarabağ probleminin həlli ilə bağlı aparılan danışıqları ABŞ poza bilər?

**Politoloq Qabil Hüseynli hesab edir ki, Rusiya ilə ABŞ-ın cənubi Qafqazdakı strateji maraqlarını üst-üstə qoysaq və ya müqayisə eləsək, bu müqayisə kontekstində Dağlıq Qarabağın gələcək vəziyyətini daha aydın təsəvvür edə bilərik:** "Rusiya həqiqətən də öncə 2 və ya üç rayonun qaytarılmasını təklif kimi irəli sürür. Əvvəllər də belə olub. Qarşılığında isə Azərbaycan üçün məqbul olmayan məsələləri qəbul etməyimizi istəyir. Bu gün Rusiyanın Ermənistanla birlikdə hərbi birləşmələr yaratması, Ermənistandakı silahlı qüvvələrinə yeni canlı qüvvə, yeni texnika yeritməsi və digər addımlar onu göstərir ki, Rusiya Cənubi Qafqazda tamamilə möhkəmlənmək, ABŞ-ı sıxışdırıb çıxarmaq arzusundadır. Mən Rusiyanın Qarabağ probleminin həlli sahəsindəki səylərinə inanmıram. Əvvəla, bu problemin yaranmasında, problemin uzun müddətdir həll edilməməsində Rusiyanın rolu kifayət qədər böyükdür. İndi isə heç gözləmədiyimiz halda ABŞ və Almaniya Dağlıq Qarabağ probleminə kifayət qədər fəal surətdə müdaxilə etməyə başlayıblar - ABŞ ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, Almaniya isə ATƏT-in fəaliyyətdə olan sədri kimi. Onların birinci təklifi odur ki, Dağlıq Qarabağ ətrafındakı 7 rayondan bütün işğalçı erməni qoşunları çıxarılmalıdır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal faktını da onlar etiraf ediblər. Amma belə bir etirafı biz hələ ki ciddi şəkildə Rusiyanın dilindən eşitməmişik. Qərb Azərbaycana, xüsusən Xəzər dənizi akvatoriyasına 50 milyard dollara yaxın sərmayə yatırıb. İndi belə görünür ki, Xəzərdə Rusiyanın ardı-arası kəsilməyən manevrləri, Dağlıq Qarabağ məsələsinin həllində beynəlxalq hüquqa əsaslanmayan, BMT-nin qətnamələrinə əsaslanmayan təkliflərin Rusiya tərəfindən irəli sürülməsi, üstəlik də rus mətbuatında Rusiya qoşunlarının sülhməramlı qüvvələr adı altında Dağlıq Qarabağda yerləşdiriləcəyi barədə fikirlərin ortaya atılması ABŞ-da narahatlıq yaradır. NATO Rusiyanı özünün bir nömrəli düşməni hesab edir və Rusiya ətrafında böyük bir mühasirə həlqəsi düzəltmək istəyir. Bunu Şərqi Avropada, Gürcüstanda yerinə yetirib. Növbəti mərhələ Cənubi Qafqazın digər ölkələri ola bilər. Bu ölkələrdə də NATO Rusiya kimi RLS tikmək, hərbi qüvvələr gətirmək taktikasından yox, ölkələrdəki münaqişələri beynəlxalq hüququn normalarına uyğun olaraq həll etmək istəyir.



Supergüclər burada toqquşur. Amma toqquşmada biri bölgəni tam nəzarət altın almaq istəyir, o birisi bölgənin problemlərini ədalətli həll etməyə çalışır, amma bölgəni də öz təsiri altında saxlamaq istəyir".

**Q.Hüseynli qeyd etdi ki, Rusiya Dağlıq Qarabağ problemini ədalətli həll edib bölgəni öz təsiri altında saxlasaydı, bölgənin rəğbətini qazana bilərdi:** "Amma "dovşana qaç, taziya tut" siyasəti ilə, "parçala hökm sür" siyasəti ilə bölgə əhalisinin rəğbətini qazanmaq və problemləri həll etmək mümkün deyil. Rusiyanın Ermənistanla birgə hərbi birləşmə yaratması ilə ədalətli vasitəçilik prinsipləri qətiyyən bir-birinə uyğun deyil. ABŞ da əslində bilir ki, Putin planı deyilən plan Dağlıq Qarabağ problemini tamamilə həll edəsi deyil. Qərbdə hətta belə düşüncə var ki, Rusiyanın həll planı münaqişənin yenidən alovlanması ilə nəticələnə bilər. Ona görə də ABŞ Rusiyanı durdurmaq istəyir. Rusiyanı tamamilə öz qabığı, öz tarixi sərhədləri çərçivəsinə salmaq istəyir. Qərbin bu bölgədə siyasi maraqları Rusiyanın siyasi maraqlarından daha üstündür".

**Politoloqun sözlərinə görə, Putinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin keçirdiyi görüşdəki danışıqlar barədə məlumatı ABŞ həm texniki yollarla, həm də Minsk Qrupundakı fəaliyyəti ilə əldə edə bilər:** "Digər tərəfdən, Metyu Brayzanın dedikləri yeni bir şey deyil. Əvvəldən də bəllidir ki, hətta beş rayonun qaytarılması razılaşdırılsa belə, bu rayonların hamısı eyni vaxtda qaytarılmayacaq. Ermənilər bəyan etmişdilər ki, belə bir razılaşma olsa belə, rayonları bir-bir geri verəcəyik, çünki texniki cəhətdən buna imkanımız yoxdur. Arada bir müddət isə iki rayonun eyni vaxtda qaytarılacağı barədə fikirlər yayılmışdı. Bütün bunlar ABŞ-a da, Metyu Brayzaya da məlum olan məsələlərdir. Brayza ermənilərin köhnə təfəkkür tərzinə istinad edərək ola bilsin ki, ya özündən həmin fikirləri quraşdırır, quraşdırırsa da həqiqətə çox yaxındır. O da mümkündür ki, ABŞ-ın əlində olan dəqiq informasiyalardan Brayza da məlumatlıdır və həmin məlumatlar əsasında danışıb. Brayza diplomatiyada bişmiş adam kimi məlumatların bəzi komponentlərini təqribi formada quraşdırıb təqdim edə bilər".

**Ekspertə görə, ABŞ Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsini qətiyyən istəmir:** "Vaşinqton əmindir ki, Putin planı deyilən plan əslində Rusiya qoşunlarının Dağlıq Qarabağda-Azərbaycan ərazisində yerləşdirilməsini hədəfləyib. ABŞ Rusiya ilə mübarizədə bir qədər cəsarətli və barışmaz mövqe tutarsa, bölgədəki geostrateji vəziyyət sürətlə dəyişə bilər. Bu dəyişiklik fonunda Qarabağ problemini ədalətli həll etmək çox da çətin olmaz. ABŞ ya prosesə birdəfəlik girişib Rusiyanın bölgədə at oynatmasına son qoymalıdır, ya da bölgəni taleyin, Rusiyanın ümidinə buraxıb hadisələrin inkişafını kənardan seyr etməlidir. Amma o zaman vəziyyət çox ağır ola bilər".

❑ **Etibar SEYİDAĞA**

# Vicdanlı hakimin iradəsi



**Xalid KAZIMLI**

**Son 25 ildə bir xeyli dost-tanışın yolu məhkəmələrdən keçib. Onların sırasında cinayət məsuliyyətinə cəlb edilənlər də olub, inzibati qaydada mühakimə olunanlar da.**

Siyasi motivlərlə mühakimə olunanlardan xəbəriniz var, bütün hallarda onlara cəza kəsilib. Eyni sözü inzibati qaydada mühakimə olunanlara da aid etmək olar, ancaq onların sırasında az-az cərimələnməyələr, cəza almayanlar da olub.

Bu iş də ona görə baş verib ki, məhkəmə iddiası hansısa orta ranqlı məmurun kaprizindən doğub, yuxarıların sifarişi olmayıb, hakim də baxıb ki, həm iddia absurddur, həm də "hökumət sifarişi" yoxdur, ona görə ədalətli qərar qəbul edib. Belə hadisələr qəzetimizin başına çox gəlib.

Ya sifariş olsaydı... Onda indiyədək 347 (şərti rəqəmdir) məhkəmədə uduzduğumuz kimi, bunda da uduzacaqdıq.

Yəni hər şey sifarişə bağlıdır. Azərbaycan hakimlərinin "yuxarıdan verilən göstərişlər"ə, "hökumət sifarişləri"nə qarşı heç bir immuniteti yoxdur. Sifariş verildisə, bitdi, haqq-ədalət bir kənara atılacaq, cəza sifariş əsasında kəsiləcək.

Bu uzun illərdə "hökumət sifarişləri"nə dirənən bir hakim belə görmədik. Bəlkə də nə vaxtsa, hansı işdəsə belə bir hadisə baş verib, amma adamı elə cəzalandırıblar ki, nə medianın xəbəri olub, nə də ictimaiyyətin.

Ortada isə həmişə sifarişli hökmlər çıxaran hakimlərin adı hallanıb. Bir ara onlar əməlli-başlı ixtisaslaşmışdılar. Bir qrup hakim idi, bütün siyasi motivli işlərə özləri çıxırdılar və həmişə də bir kimsənin "gözünün yaşına baxmadan" saraydan verilən hökmü oxuyurdular.

Bunlar o hakimlər idi ki, Avropa İnsan Haqları Məhkəməsi də onların əlindən bezar idi, bu hakimlərin çıxardığı çox sayda qanunsuz və ədalətsiz hökmlərə yenidən baxmış, qanunsuz olduğunu təsbit etmiş, üstəlik, bu hökmlərə görə Azərbaycan dövlətini cərimələmişdi.

Fəqət dövləti cərimələtdirən bu hakimlərə güldən ağır söz deyilmirdi, onlar yenə də sifarişli hökmlər çıxarmağa davam edirdilər və edirlər. Çünki bu şəxslər o hökmləri öz iradələrinə, keflərinə uyğun olaraq çıxarmırlar ki, sonra da cavabdeh olsunlar. Onlar icraçıdırlar və yaxşı icraçı olduqlarına görə hətta peşə bayramı olan günlərdə mükafatlandırılan hakimlərin önündə gəlirlər.

Budur, o cür hakimlərdən biri olan Ənvər Seyidovun, Bakı Ağır Cinayətlər Məhkəməsinin məşhur hakiminin dağılmış MTN-nin sabiq rəhbəri Eldar Mahmudova yazdığı məktub ortaya çıxıb.

Həmin məktubda Seyidov MTN tərəfindən həbs olunan bir qrup məhkuma qapalı məhkəmədə 10-14 il həbs cəzası verəndən sonra ürəyi soyumur, götürüb nazirə məktub yazır ki, MTN-nin antiterror mərkəzinin bir qrup əməkdaşının "vicdanlı" və "ləyaqətli" hərəkətlərinə görə mükafatlandırsın.

Bu yazışma 10 il öncə olub. Sabiq nazir Eldar Mahmudov yəqin ki, həmin məktubu əldə rəhbər tutaraq öz "vicdanlı əməkdaşlar"ını mükafatlandırıb, amma bu gün onlar hamılıqca içəridədirlər. Çünki məlum olub ki, bu "ləyaqətli təhlükəsizlik işçiləri" dövlətə və xalqa qarşı silsiləvi bəd əməllər törədiblər.

Jurnalistlər belə bir məktub yazdığına görə Ənvər Seyidova sual veriblər, ancaq o, əvvəlcə bu cür məktub yazmasını danıb, sonra, fakt qarşısında qalandan sonra deyib ki, Eldar Mahmudovun gorəşən olduğunu bilməyib.

Ən maraqlısı odur ki, Ənvər Seyidov vaxtilə tərifləndiyi mükafatlandırılmasını xahiş etdiyi MTN-çilərin cinayət işinə baxmağı ona həvalə edəcəkləri təqdirdə bu işə məmnuniyyətlə baxacağını bildirib: "Əlbəttə, baxacam. Onlar ən layiqli cəzalarını almalıdır. Qanun qarşısında cavab verəcəklər".

Heç kəsin şübhəsi olmasın ki, Ənvər Seyidov bu işə də yüksək səviyyədə baxacaq.

Sadəcə, bir məsələ var, sifariş məsələsi. Əgər yuxarıdan sifariş olsa, Seyidov mühakimə olunanlara qanunun bütün sərtliyi ilə cəza kəsəcək. Yox, sifariş olmasa, müttəhimləri cəzalandırmağı onun öz vicdanına buraxsalar (hərçənd bu, mümkün deyil), o zaman bütün ölkə Seyidovun nə qədər humanist bir hakim olduğunu sübut edəcək. Ona qalsa, o, hətta həmin şəxsləri məhkəmə zalından azadlığa da buraxa bilər. Yetər ki, bu iş onun öz iradəsinə buraxılsın, sifariş olmasın.

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

# Azərbaycanda İŞİD-ə maraq azalan xətt üzrə gedir

**Ekspert:** "Ölkədə deyərdim ki, İŞİD-ə maraq yox, əksinə, nifrət artıb..."



**Son zamanlar mətbuatda İŞİD terror qruplaşması ilə bağlı xəbərlərin əvvəlki dövrlərlə müqayisədə xeyli azalması müşahidə olunur. Eyni zamanda artıq onlar əvvəlki templə baş kəsib, bunun videosunu çəkib paylaşmırlar.**

Bu baxımdan, bir çox ekspertlər də hesab edirlər ki, İŞİD artıq insanlara əvvəlki təsirini itirib. Psixoloqlar isə bunu belə xarakterizə edirlər ki, insanlar artıq bu qruplaşmanın etdiklərinə öyrəşib və onların addımları əhali arasında bir o qədər də qorxu və təlaş yaratmır. Hesab olunur ki, məhz buna görə də İŞİD-i himayə edənlər belə artıq onu məhv etməyi düşünürlər.

Terror təşkilatının ortaya çıxdığı və sədasının geniş miqyasda yayıldığı zamanlarda Azərbaycandan da bu qruplaşmaya qarşı maraq göstərənlər var idi. Onlar İŞİD-ə qoşulmaq üçün İraq və Suriyaya üz tuturdular. Suriya və İraqda silahlı döyüşlərdə iştirak etdikdən sonra Azərbaycana qayıdan 60-dan çox şəxsin Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən həbs edilərək cinayət məsuliyyətinə cəlb olunmasından sonra Azərbaycanda da İŞİD-ə maraq göstərənlər azaldı. Bunu Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov da mətbuata açıqlamasında təsdiqləmişdi ki, ölkədən Suriya və İraqa gedənlərin sayında kəskin azalma var.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bildirdi ki, Azərbaycanda bu hadisələrə maraq "Ərəb baharı"ndan sonra artmışdı:** "İŞİD yarandıqdan sonra insanlar arasındakı maraq bir qədər də çoxaldı. Lakin son zamanlar İŞİD-ə qarşı maraq azalıb. Azərbaycanda deyərdim ki, İŞİD-ə maraq yox, əksinə, nifrət artıb. Onlara qoşulmaq üçün ölkədən gedən uşaqların ailələri də İŞİD-i lənətləyirlər. Bəzi ailələr tanıyıram ki, vəziyyətləri çox pisdir və övladlarının sağ olub-olmadığını da bilmirlər. Lakin İŞİD-ə qarşı maraq azalsa da bu, tamamilə yox səviyyəsinə gəlməyib. Çünki İŞİD bir ideologiyadır və yenə də geniş şəkildə olmasa da tələyə düşən cavanlar var. Bütövlükdə götürdükdə hesab edin ki, İŞİD bir proyektdir. Dünyanın bütün potensial terrorçuları ora yığışır və onları bir yerdə məhv edirlər. Hələ ki bu proses uzun çəkəcək. Azərbaycanda bu qruplaşmaya qarşı maraq azalsa da, xaricdə maraq qalır. Orada həm radikal dindarlar yenə də İŞİD-ə axışırlar, həm də güclü dövlətlər bundan istifadə edib başqa dövlətlərə təzyiq edirlər. Bütün bunlarla yanaşı, həm də İŞİD vasitəsilə terroristləri də birlikdə məhv etmək şəraiti yaranır".

**Ekspertə görə ki, əksəriyyət bu qruplaşmaya pul üçün getsələr də onların bu addımlarında ideoloji tərəflər də olub:** "Maddi gəlirləri normal ailələr olub ki, onların da övladları İŞİD-ə maraq göstəriblər. Hələ də orada böyük maliyyələr tələb olunur. Bu, həm silah alınması, həm də üzvlərə verilən pullarla bağlıdır. Bizdən gedənlərin də bir çoxu maliyyə ilə bağlı İŞİD-ə üz tuturdular. İnsanların bu kimi terror qruplaşmalarına üz tutmasının əsas səbəblərindən biri ölkədəki işsizliyin çox olmasıdır. Fransa, Belçika və digər xarici ölkələrdən bu qruplaşmaya qoşulmaq üçün gedənlərin əksəriyyəti bunu dini mənsubiyyətlərinə, ideologiyalarına görə edirdilər. Bizdə isə əksəriyyət dini mənsubiyyətlərindən də çox maddi və cəmiyyətdə baş verən haqsızlıqlara görə İŞİD-ə qoşulmağa can atırdılar".

Ekspertlər onu da qeyd edirlər ki, Azərbaycanda əhalinin yalnız 1-1.5 faizi vəhhabi ola bilər. Çünki əhalinin düşüncə tərzi sələfiliyə yaxın deyil. Eyni zamanda bəzi psixoloqların fikrincə, Azərbaycan cəmiyyətində şəxsi həyata müdaxilə bir o qədər də qəbulolunan hal deyil. Bu səbəbdən tarixən regionda İslamın radikal qolunun geniş yayılması halı müşahidə olunmayıb.

❑ **Əli RAİS**



## Elnur Aslanov: "Bakıda məzuniyyətdəyəm"

**Vaxtilə adı "Gülən camaatı" ilə əlaqədə hallanan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron İdarəçiliyin İnkişafı şöbəsinin müdiri Elnur Aslanov ölkədən gedib. Axar.az-a daxil olan məlumatda bildirilir ki, E.Aslanov məzuniyyətə çıxıb və məzuniyyətdən sonra vəzifəsinə geri qayıtmayacaq.**

Nazirliyin Elektron İdarəçiliyin İnkişafı şöbəsi faktı təsdiqləyib: "Elnur Aslanov bir həftə əvvəl öz istəyi ilə məzuniyyətə çıxıb. Məzuniyyət dövrünün nə qədər davam edəcəyi və onun ölkədə olub-olmadığını bilmirik. Ola bilsin ki, sentyabrda işə qayıtsın, ola bilsin ki, məzuniyyət müddəti uzansın. Bu barədə dəqiq məlumatımız yoxdur".

Qeyd edək ki, E.Aslanov 19 dekabr 2007-ci ildə Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri təyin edilib. Adı "Gülən camaatı"na xidmətdə hallanan E.Aslanov 17 mart 2014-cü ildə vəzifəsindən azad edilib. Bir müddət əvvəl isə onun FETÖ lideri Fətullah Gülənə yazdığı məktub üzə çıxmışdı.

Virtualaz.org-un əməkdaşı Elnur Aslanovla əlaqə yarada bilib və məlum olub ki, o, Bakıda və məzuniyyətdədir. Elnur Aslanov KİV-də yayılmış yanlış informasiyanı belə şərh edib: "Yay fəslinin üstünlüklərindən istifadə edərək, qanunla nəzərdə tutulmuş məzuniyyətdəyəm və onu ailəmlə birlikdə keçirirəm. Şübhəsiz ki, məzuniyyət bitən kimi işə çıxacağam. Ayrı-ayrı əli qələm tutanların gümanları həqiqətə uyğun deyil. Yanlış məlumatı yerləşdirmədiyiniz üçün sizin sayta minnətdarlığımı bildirirəm".

E.Aslanov Milli Məclisin keçmiş deputatı Rəbiyyət Aslanovanın oğludur.

# Viza rejimini sadələşdirməklə bağlı çətin seçim: turizm, yoxsa təhlükəsizlik?

**Bu il ölkəmizə gələn turist sayı, xüsusən də ərəb ölkələrindən gələnlər əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə artdı. Məlum olduğu kimi, turizmə təkan verən amillərdən biri də viza rejiminin sadələşdirilməsidir. Hazırda dünyanın əksər ölkələrindən Azərbaycana gəlmək istəyən turistlər viza almaq üçün çətin prosedurlardan keçməli olur, Azərbaycanın həmin ölkədəki konsulluğuna müraciət etmək üçün məsafə qət etməli olurlar.**





**Çingiz İsmayılov:** "Azərbaycanda təhlükəsizliyin təmin olunması üçün avropasayağı sadələşdirməyə getməməliyik"
**Elxan Şahinoğlu:** "Terrorist əgər hər hansı ölkədə terror törətmək istəyirsə, viza onun üçün maneə deyil"

Bu baxımdan, ekspertlər hesab edir ki, viza rejiminin sadələşdirilməsi ölkəyə daha çox turist cəlb etmək baxımından zəruridir. Digər tərəfdən, bəzi ekspertlər hesab edir ki, hazırda dünyanı bürüyən terror təhlükəsi varkən, viza rejiminin sadələşdirilməsi arzuolunmaz addımdır.

**Turizm məsələləri üzrə ekspert Çingiz İsmayılov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, viza sadələşdirilməsi ilə bağlı qərar verərkən dünyada cərəyan edən prosesləri nəzərə almaq lazımdır: "Bizim respublikamızın geosiyasi mövqeyi, coğrafi vəziyyəti və ətrafımızda və Orta Şərqdə gərginliyin yaranması, qaçqınların axını, miqrantların bir hissəsinin buraya maraq göstərməsi vizanın sadələşdirilməsini yox, vəziyyətə uyğun olaraq tədbirlərin görülməsini tələb edir. Hesab edirəm ki, biz Azərbaycanda təhlükəsizliyin təmin olunması üçün avropasayağı sadələşdirməyə getməməliyik. Mövcud təhlükələri nəzərə alaraq vizanın verilməsinə müvafiq qaydalara riayət edilməsini təmin etməliyik. Sırf Avropa vizanı sadələşdirir deyə, biz də bunu etməliyik yanaşması düzgün deyil. Azərbaycanın təhlükəsizliyinin təmin edilməsinə uyğun olaraq viza rejimi də tənzimlənməlidir. Ona görə də xüsusi olaraq avropalılar üçün və ya digərləri üçün xüsusi qanun verilməməlidir. Hamı üçün eyni qanun tətbiq edilir və o qanuna da riayət etmək lazımdır. Burada nəyinsə xatirinə, hansısa standartlara uyğun olmaq üçün sadələşdirməyə ehtiyac yoxdur".

**Ekspertin fikrincə, elektron viza rejimini tətbiq edərkən də riskləri nəzərə almaq lazımdır:** "Elektron şəbəkədən hamı istifadə edir. Potensial terrorist də elektron müraciət edə bilər. Viza verərkən İnterpolla da maraqlanmaq lazımdır, həmin insanın cinayətkarlar siyahısında olub-olmadığı araşdırılmalıdır. Onlar hamısı nəzərə alınmalıdır. İndi təhlükəsizlik məsələsi hər şeydən vacibdir. Görün Türkiyədə nələr baş verir. Bu ölkədə təhlükəsizlik sahəsində böyük təcrübə olsa da, nə qədər təhlükə yaşanır. Fikrimcə, dünyada cərəyan edən indiki mürəkkəb şəraitdə vizanın sadələşdirilməsi düzgün deyil".

**Politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu isə "Yeni Müsavat"a açıqlamasında təhlükəsizlik tədbirlərini turizmin önündə bir əngəl olaraq qoymağın tərəfdarı olmadığını vurğuladı:** "Müsbət addımların qarşısını bu cür iddialarla almaq olmaz. Bir tərəfdən deyirik ki, qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır, iqtisadiyyat diversifikasiya olunmalıdır. Bunun üçün də iki önəmli sahəni əsas götürürük, kənd təsərrüfatı sahəsi və turizm. Turizmə böyük önəm veririk, müxtəlif rayonlarda infrastruktur yaradılır. Turistlərin ölkəmizə daha çox gəlməsinə çalışırıq ki, bu yolla büdcə gəlirləri artsın. Turist sayının artması üçün vizanın sadələşdirilməsinə ehtiyac var. Bəzi ekspertlər də bunun əleyhinə çıxır ki, vizanı sadələşdirsək, təhlükə ilə üzləşə bilərik".

**E. Şahinoğlu viza rejiminin sadələşdirilməsinin Azərbaycan üçün təhlükə yaratmayacağını vurğuladı:** "Türkiyə hər tərəfdən təhlükələrlə üz-üzədir. İŞİD, PKK və FETÖ terror təşkilatları Türkiyəni hədəfə alıb. Buna baxmayaraq, Türkiyə yenə də turizmə üstünlük verir. Çünki bilir ki, turizmdən gələn gəlir ölkənin inkişafına xidmət edir. Ancaq bu o demək deyil ki, Türkiyədə törədilən terror hadisələri viza rejiminin sadələşdirilməsi ilə bağlı olsun. Türkiyədə bu terror aktlarını törədənlər əslində viza ilə gələnlər deyil, Suriyadan gələnlərdir, Türkiyənin öz içindəki terrorçulardır. Heç bir şəxs Avropa ölkələrindən və ya ərəb ölkələrindən turist kimi gəlib partlayış törətməyib, belə bir fakt yoxdur. O baxımdan, mən bu iki məsələni bir-birinə bağlamağı düzgün hesab etmirəm. Vizaları yumşaltmaq lazımdır, internet üzərindən vizanın əldə edilməsini təmin etmək lazımdır. Azərbaycanda bu sahədə müəyyən işlər görüldüyü üçün ölkəyə turist axını bir qədər artıb. Bu, büdcə üçün önəmli gəlir olmasa da, başlanğıc üçün pis deyil. Doğrudur, təhlükəsizlik sistemini də gücləndirmək lazımdır, ancaq bu, vizanın sadələşdirilməsinə mane olmamalıdır. Terrorist əgər hər hansı ölkədə terror törətmək istəyirsə, viza onun üçün maneə deyil. Azərbaycanda son illərdə nə qədər terrorçu təşkilatlar yaxalanıb. Məgər onlar vizasız gəlmişdi? O işi görmək istəyən viza da ala bilər. Terrorçu nəsə plan qurursa, vizanı almaq onun üçün problem deyil. Buna görə ölkənin sərhədlərini bağlamaq doğru deyil".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ məsələsində dönüşü əngəlləyən iki mühüm səbəb

## Sülh prosesinin ləngiməsi müharibə variantına yeni "nəfəs" verə bilər; köhnə status-kvoya qayıdış ən çox kimə sərfdir?

**Dağlıq Qarabağ problemi ətrafında növbəti qeyri-müəyyənlik dövrü başlayıb. Hər necə olmasa, 4 günlük aprel döyüşlərindən sonra reallaşan prezidentlərin Vyana və Sankt-Peterburq görüşləri sülh prosesində, nəhayət, irəliləyiş olacağına ümidlər yaratsa da, hələlik bu ümidlər doğrulmur. Hərçənd mərhələli həll planı ilə bağlı intriqalı yanaşma və açıqlamalar, bəzən isə spekulyasiyalar da səngimir.**






Son olaraq, ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan sabiq həmsədri Metyu Brayza özünün təhlili məqaləsində bu mövzuya toxunub. Xəbər verdiyimiz kimi, Brayza belə bir iddia ilə çıxış edib ki, prezidentlərin Sankt-Peterburq görüşü zamanı Rusiya lideri Vladimir Putin tərəflərə irəliyə doğru tədricən hərəkət eləməyi təklif edib: "Ermənistan iki rayonu qaytarmalı, Azərbaycan isə qarşılığında nəqliyyat əlaqələrini və Ermənistanla iqtisadi əlaqələri açmalıdır. Madrid prinsiplərinin bütün digər aspektləri, o sırada yerdə qalan beş rayon məsələsi sonrakı danışıqların predmeti olacaq. Həm Əliyev, həm də Sərkisyan Putinin 20 iyun təklifini alqışlayıb - baxmayaraq ki, formal şəkildə onu qəbul də etməyiblər. Məsələ ondadır ki, hansısa kompromis qərarın rəsmən qəbul olunması siyasi və təhlükəsizlik sferasında risklər vəd edir: ehtimal ki, bu səbəbdən iyulun 17-də bir qrup erməni radikal milliyyətçisi, o cümlədən Qarabağ müharibəsinin veteranları bir polis əməkdaşını öldürüb, bir neçəsini də girov götürməklə İrəvanda polis binasını tutmuşdular".

Qeyd edək ki, hələlik rəsmi Moskvadan keçmiş həmsədrin bu açıqlamasına hər hansı reaksiya gəlməyib.

*****

İşğalçı Ermənistanda da bu mövzuda vaxtaşırı müxtəlif iddialar səslənməkdədir. Məsələn, bu arada qondarma "DQR"in keçmiş "müdafiə naziri", aprel döyüşlərindən sonra Moskvadan qayıdan general Samvel Babayan deyib ki, erməni tərəfi bu yaxınlarda Moskvada ərazilərin qaytarılmasına hazır olduğunu bildirib (virtualaz.org).

Babayan bu haqda 7or.am saytına müsahibəsində danışıb. AzadlıqRadiosunun erməni xidmətinə açıqlamasında o, dediklərini təsdiqləyib. Bildirib ki, erməni tərəfi nəinki ərazilərin qaytarılmasına, həmçinin başqa güzəştlərə də hazırdır. Onun sözlərinə görə, Ermənistan artıq xarici təzyiqlərə davam gətirmək imkanında deyil. "İstər Azərbaycan tərəfdən olsun, istər həmsədrlər tərəfdən. Biz müqavimət göstərə bilmirik və "hə" deyən obyektə çevrilirik" - Babayan deyib.

**General "Samo"nun sözlərinə görə, 2008-ci ildən sonra erməni tərəfi Qarabağ məsələsində çox ciddi güzəştlərə hazır olub:** "Bunlardan birincisi Laçın rayonunun məsələsinin "Laçın dəhlizi"inə çevrilməsidir. İkincisi, azərbaycanlı qaçqınların Şuşa və Laçına qayıtmasına razılaşıblar. Üçüncüsü Dağlıq Qarabağın yekun statusunun referendumla müəyyən edilməsi qeyri-müəyyən müddətə təxirə salınır. "Yəni biz 1988-ci ilə qayıdırıq" - o deyib.

**Samvel Babayan iddia edir ki, erməni tərəfi üçün bu arzuolunmaz variantın qarşısını ancaq Azərbaycan prezidenti İlham Əliyevin işğal olunmuş rayonların hamısını, o cümlədən Şuşanı birdən geri almaq istəyi alır.** "Yəni o, 7 yox, 12 rayonu birdən istəyir. Bundan başqa Azərbaycan kimin olursa olsun, sülhməramlıların yerləşdirilməsinə qarşıdır. Ermənistan isə razılaşmağa meyllidir"- Babayan əlavə edib.

*****

**"Dağlıq Qarabağ Ermənistan üçün ən vacib problem olaraq qalır". Musavat.com-un məlumatına görə, bunu isə İrəvandakı "Modus Vivendi" analitik mərkəzinin rəhbəri Ara Papyan jurnalistlərlə söhbət zamanı deyib. Onun sözlərinə görə, artıq konfliktin həllində final mərhələsi çatıb:** "Hazırda masada olan, "ərazi əvəzinə sülh" yeni təklif deyil. Bunu 1993-dən bəri hər gün danışırlar. İndi cəmiyyət ona görə həyəcan içərisindədir ki, artıq final mərhələsinin, yəni prezidentlərin verdikləri sözləri tutmasının vaxtı gəlib çatıb".

**Erməni politoloqa görə, ərazilərin verilməsi tamamilə qəbuledilməzdir:** "Çünki bu addım daha böyük geniş miqyaslı müharibəyə apara bilər". Ara Papyanın fikrincə, Rusiya Dağlıq Qarabağ məsələsindən öz problemlərini həll edilləsi üçün istifadə edir.

"Rusiya Azərbaycanı Avrasiya İqtisadi İttifaqına cəlb etmək üçün dəridən-qabıqdan çıxır. Belə olan halda biz danışıqlar prosesinin mahiyyətini - status müqabilində ərazilər, yanaşmasını kökündən dəyişməliyik. Bu mənada heç bir kompromisdən söhbət gedə bilməz. Çünki bu kompromis heç bir zaman ekvivalent olmayacaq", - deyə o qeyd edib.

Papyan həmçinin hesab edir ki, Ermənistan hazırda Qərb və Türkiyə arasındakı gərginlikdən istifadə etməklə öz rolunu regionda gücləndirə bilər. O, Rusiya-Türkiyə ittifaqının hər mənada Ermənistan üçün çox təhlükəli olduğunu vurğulayıb. "Əgər Ermənistan istisnasız rusiyayönümlü siyasət yürütsə, biz Dağlıq Qarabağı itirəcəyik" - o, əlavə edib.

*****

Xatırladaq ki, bir sıra Rusiya mənbələri, o sırada Kremlə yaxın qaynaqlar və prezident Vladimir Putinin etibarlı şəxslərindən sayılan politoloq Sergey Markov tərəflər arasında hazırda məhz Moskvanın təklif elədiyi "Kazan sənədi" adlanan mərhələli həll variantının müzakirə predmeti olduğunu bildiriblər.

Həmin plana görə, öncə Azərbaycanın 5 və ya 7 *(hələ ki bu, mübahisə predmetidir)* azad olunacaq, qarşılığında Ermənistanın və Dağlıq Qarabağın blokadası götürüləcək, Dağlıq Qarabağa aralıq status veriləcək, qaçqınlar öz yurd yerlərinə qayıdacaq, bölgə hərbisizləşdiriləcək və ora təhlükəsizliyin qorunması üçün beynəlxalq sülhməramlı qüvvələr yeridiləcək, ən sonda isə Dağlıq Qarabağın yekun statusu müəyyən ediləcək.

Göründüyü kimi, Qarabağ məsələsində irəliləyişlə bağlı birmənalı fikir söyləmək çətindir. Bu qənaəti gücləndirən amillərdən biri də məsələdə ABŞ-Rusiya gizli rəqabətinin özünü göstərməsidir. Sülh prosesinə ikinci ciddi əngəli Rusiyanın hələ ki ərazilərlə bağlı Ermənistana ciddi təzyiq göstərməyə hazırlaşmamasıdır.

Əfsus ki, hər iki faktor status-kvonu uzatmağa çalışan işğalçı Ermənistanın maraqlarına daha çox cavab verirmiş kimi görünür. Ancaq bu, ilk baxışda belədir. Çünki münaqişənin uzanması ən çox Ermənistana itkilər vəd edir. Söhbət təkcə iqtisadi itkilərdən getmir. 4 günlük aprel müharibəsi göstərdi ki, təcavüzkar qat-qat böyük hərbi və canlı itkilərdən də sığortalanmayıb.



## "Rusiya Qarabağ məsələsinin həllini istəmir" - qazax politoloq

**"Azərbaycan, Ermənistan və Qazaxıstan prezidentlərinin birgə görüşü özü-özlüyündə, əlbəttə ki, mümkündür. Güman edirəm ki, Azərbaycan və Ermənistan prezidentləri görüşün təşkilatçısı kimi çıxış etmiş Qazaxıstan prezidenti Nursultan Nazarbayevə etiraz etməyəcəklər. Lakin bu görüşün nəticəsində rəsmi Bakı və İrəvan Qarabağ məsələsinin həlli üzrə hər hansı razılığa çətin ki, gələ bilərlər. Çünki bu cür razılaşma tamamilə başqa səviyyədə siyasi iradə və məsuliyyət tələb edir".**

Bu barədə virtualaz.org-a eksklüziv müsahibəsində Qazaxıstan politoloqu Aydos Sarım yaxın zamanlarda keçirilməsi gözlənilən prezidentlərin üçtərəfli görüşündə Qarabağ probleminin həlli yollarının müzakirə ediləcəyi ilə bağlı xəbəri şərh edərkən bildirib.

Xatırladaq ki. rusiyalı ekspertlər də Qazaxıstan prezidentinin münaqişə tərəfləri arasında danışıqlarda əsas vasitəçi kimi rolundan danışıblar. A.Sarım belə hesab edir ki, son dövrlərin bəzi hadisələri, ələlxüsus Rusiya-Türkiyə münasibətlərinin normallaşdırılmasında N.Nazarbayevin rolu inamı möhkəmləndirib ki, o, Azərbaycanla Ermənistan arasında münaqişənin də tənzimlənməsinə kömək edə bilər.

"Problem burasındadır ki, prezidentimiz demək olar ki, hər yerdə və hamı ilə güzəştə getməyin mümkünlüyünə səmimi olaraq inanır. Qarabağa gəlincə isə o bir şeyi unudur: Rusiya bu münaqişənin həllində maraqlı deyil. Ola bilsin ki, o, Rusiya rəhbərliyini bu münaqişənin həllinə köməyin zəruriliyinə inandıra bilsin. Hərçənd indi yaranmış vəziyyəti, Rusiya-Türkiyə yaxınlaşmasını nəzərə alsaq, tamamilə mümkündür ki, Qarabağ məsələsi üzrə hər hansı həll yolunun qəbulu üzrə iş gedir, amma bu həll çətin ki, hər iki tərəf üçün məqbul olsun" - politoloq bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 186 (6407) 24 avqust 2016

# Türkiyə daha bir Avropa ölkəsi ilə münasibətlərin qırılma nöqtəsinə gəldi

## Avropa ilə gərginlik Ankara üçün çətin sınaq olacaq...

**Türkiyə ilə Avstriya arasında yenidən gərginlik yaranıb. Bu ölkədə PKK tərəfdarlarının aksiya keçirməsi Ankaranın səbrini daşırıb. Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Türkiyənin Vyana səfiri məsləhətləşmələr üçün geri çağırılıb. Nazir deyib ki, Avstriyada son illərdə gəlmələrə qarşı düşmənçilik, islamafobiya və irqçilik artıb.**

Çavuşoğlunun iddiasına görə, Avstriya hökuməti qəsdən ölkədə Türkiyə və türk xalqı əleyhinə təbliğat aparılmasına, mənfi fikir yaradılımasına çalışır. Xüsusən də 15 iyul qiyamından sonra Avstriyanın digər Avropa ölkələri kimi Ankaraya dəstək vermədiyini, əksinə, tənqidləri daha da artırdığını qeyd edib. Sitat: "Çevriliş cəhdi və sonrasında Türkiyəyə dəstək vermədilər, tam əks mövqe tutdular".

Ankara Avstriya hökumətinin Türkiyə vətəndaşlarının bu ölkədə qiyam əleyhinə keçirmək istədiyi aksiyaya icazə vermədiyi, əksinə, bundan narahat olmasını narazılıqla qarşılayıb. Üstəlik, Türkiyə vətəndaşlarının 15 iyul qiyamı əleyhinə etiraz aksiyasına icazə verməyən Vyana hakimiyyəti PKK tərəfdarlarının mitinqinə icazə verib və bununla da əslində son illərdə artan gərginliyə, necə deyərlər, yağ töküb.

**Nazir münasibətlərin daha da pisləşəcəyi siqnalını da verib:** "Təəssüf ki, Avstriya ilə ikitərəfli əlaqələrin və əməkdaşlığın normal şəkildə davam etməsi zəmini ortadan qalxıb. Bu səbəblə də artıq Avstriya səfirini nazirliyə çağıraraq etirazımızı bildirdik. Eyni şəkildə Vyana səfirimizi də Ankaraya çağırıb münasibətlərimizi yenidən gözdən keçirəcəyik. İkitərəfli əlaqələrimizə biz də laqeyd olmayacağıq, eyni zamanda onlar kimi ikiüzlü olmayacağıq. Bizə yanaşdıqları kimi, biz də onlara yanaşacağıq".

Qeyd edək ki, Türkiyə-Avstriya əlaqələri son illərdə soyuqlaşıb. AB ölkələri kimi Avstriya hakimiyyəti də Ankaranı insan haqlarını tapdamaqda, söz azadlığını boğmaqda günahlandırıb. 15 iyul qiyamından sonra isə Avstriya hakimiyyəti



Ankaranı daha sərt tənqid edib, xarici işlər naziri Sebestyan Kruz Türkiyənin AB olmadan iflas ola biləcəyini deyib.

Bundan başqa, Avstriyada türklərin mitinqlərində Türkiyə bayrağı yasaqlanıb. Eyni zamanda Türkiyə, eləcə də hazırkı hakimiyyət əleyhinə posterlər yayılıb, Türkiyəyə turizm səfərlərinə qarşı əks-təbliğat reklam lövhələri yayılıb. Türkiyə isə buna qarşı Avstriyaya əvvəlcə diplomatik kanallarla reaksiya verib, bu ölkəni irqçiliyi yaymaqda ittiham edib. İndi isə artıq səfiri geri çağırmağa qədər irəliləyib.

Son illərdə Avstriya ilə yanaşı, Almaniya, Britaniya kimi ölkələrdə də Türkiyəyə qarşı münasibət dəyişib. Əvvəlcə bu dəyişiklik daha çox Türkiyə hökumətinin demokratik haqları tapdaması, söz azadlığını boğması olaraq büruzə verilsə də, sonradan eyni zamanda Türkiyəyə qarşı siyasi təzyiqlərə çevrilib. Türkiyə hakimiyyətinin uzun illər birgə yol gəldiyi Avropa ilə münasibətlərinin bu qədər pisləşməsinin arxasında çoxsaylı amillər yatsa da, görünən odur ki, hazırkı şərtlərdə Türkiyənin Qərblə anlaşması yaxın illərdə mümkün deyil. Bu isə o deməkdir ki, Türkiyə-AB gərginliyi yaxın illərdə daha da dərinləşcək. Ancaq vəziyyətin bu həddə gəlməsi Türkiyənin xarici siyasətinə ciddi təsir edə, ənənəvi müttəfiqləri arasında ciddi soyuqluğa səbəb ola bilər. Yaxın zamanlarda Avropa ilə barışıq və münasibətlər qaydaya salınmayacağı halda, Ankaranın Avropa ilə çox ciddi problemlərinin yaranacağını gözləmək olar.

❑ KƏNAN



## İŞİD-dən Fransaya ağır zərbə

**Ötən il İŞİD-in Parisdə həyata keçirdiyi terror aktlarından sonra Fransa turizminə ciddi ziyan dəyib. Axar.az xəbər verir ki, terror hücumlarından sonra Fransa təkcə turizm sahəsində 850 milyon dollar itirib. Məlumata görə, Parisə gəlməkdən imtina edən turistlər arasında yaponlar birinci yerdədir.**

Qeyd edək ki, İŞİD ötən il Fransada müxtəlif ictimai məkanlarda, futbol stadionunda qanlı terror aktları törədib. Konsert zalında təşkil olunan terakt zamanı 100-ə yaxın insan həlak olub.

# İki tanınmış ermənninin davası - "Ermənistan torpaqları qaytar(ır), ...(mır)"

## Samvel Babayanın Ermənistanın Azərbaycana əraziləri güzəştə getməsi ilə bağlı dediklərinə David Babayandan cavab gəldi...

**Xəbər verdiyimiz kimi, keçən həftə qondarma "DQR"in keçmiş "müdafiə naziri" Samvel Babayan 7or.am saytına verdiyi müsahibədə iddia edib ki, Moskvadakı görüşdə Ermənistan tərəfi işğal etdiyi əraziləri geri qaytarmağa hazır olduğunu bildirib.**

Samvel Babayanın sözlərinə görə, Ermənistanın nə Azərbaycan, nə də vasitəçilər tərəfindən edilən təzyiqlərə qarşı dayanmaq gücü qalmayıb.

"Biz artıq müqavimət göstərə bilmirik və "hə" deyən obyektə çevrilirik", - deyə Samvel Babayan bildirib.

Erməni mətbuatı prezident Serj Sərkisyanın Vladimir Putinlə avqustun 10-da Moskvada keçirdiyi görüşdən sonra söylədiklərinə də diqqət çəkir. Həmin görüşdən sonra Sərkisyan "Qarabağ məsələsi üzrə əldə olunan razılaşmaların yerinə yetirilməsi çox vacibdir. Biz buna hazırıq", deyə bəyan etmişdi.

Sərkisyan həmin vaxt hansı razılaşmalardan söhbət getdiyini açıqlamamışdı.

**Qondarma respublikanın "prezident aparatının" rəhbər müavini David Babayan Samvel Babayanın dediklərinə cavab olaraq Ermənistanın Moskvada ərazi güzəştlərinə razılıq verməsi xəbərlərinə inanmadığını söyləyib:** "Əlbəttə ki, mən bunu mümkünsüz hesab edirəm. Onda bu xəbərlər hardandı? Əgər danışıqlar bağlı qapılar arxasında keçirilirsə, orada nə danışıldığını kim bilir? Bu məsələyə həm də bir məntiqdən də yanaşaq ki, Ermənistan Xankəndi üçün məqbul olmayan heç bir varianta getməyəcəyini dəfələrlə bəyan edib".

"Əgər rəsmi Xankəndi *(qondarma respublika - red.)* müzakirə prosesində iştirak etmirsə, rəsmi İrəvan bu sözləri necə deyə bilər? Putin özü də tərəflərə hansı



Samvel Babayan



David Babayan

sa variantları zorla qəbul etdirməyəcəyini söyləyib. Biz isə ancaq şayiələrlə danışırıq. Orda başqa adam yoxdu? Əgər biz sərhədlərimizin (?) qorunmasından danışırıqsa, o zaman adamları Qarabağa çağırmaq lazımdır. Qarabağ təkcə fleşmob üçün, fotoşəkil çəkmək yeri deyil. Gəlin burda məskunlaşaq...Lakin olmayan bir şey haqqında həmişə danışmaq olmaz", - deyə David Babayan AzadlıqRadiosunda Samvel Babayana cavab verib.

Qeyd olunur ki, Samvel Babayan erməni tərəfinin ərazilərdən əlavə başqa güzəştlərə də hazır olduğunu bəyan etmişdi.

Onun sözlərinə görə 2008-ci ildə erməni tərəfi 3 maddədə ciddi güzəştə gedib:

**1. Laçın rayonu Laçın dəhlizinə dönür;**

**2. Şuşa və Laçından olan məcburi köçkünlər yerlərinə qayıdır;**

**3. Dağlıq Qarabağın statusunun qəti müəyyən edilməsi ilə bağlı referendum qeyri-müyyən vaxta salınır.**

"Bu çox ciddi güzəştlərdir və onların həyata keçməsi olduqca pis nəticələrə (ermənilər üçün - red.) gətirib çıxara bilər", - deyə Samvel Babayan vurğulayıb.

Samvel Babayanın sözlərinə görə, Ermənistan tərəfi "güzəştlərdən" danışdığı halda, Azərbaycan tərəfi güzəştə getməyə heç bir həvəs göstərməyib.

Kompromislər dedikdə nəyin nəzərdə tutulduğu barədə suala cavab olaraq isə Samvel Babayan bunun Ermənistanın işğal olunmuş əraziləri geri qaytarmasından, əvəzində isə beynəlxalq birliyin status məsələsini qeyri-müəyyən vəziyyətdə saxlayaraq, Qarabağın təhlükəsizliyini təmin etməkdən ibarət olduğunu söyləyib: "Ərazilər məsələsi süni olaraq önə çəkilir, çünki onlar aparılan danışıqlar zamanı düşüncələrdə artıq təslim edilib. Torpaqları verən onu təslim etdiyini deyir, alan isə götürmür", deyə Samvel Babayan bildirib.

Hazırkı dövrdə nizamlanma planı Azərbaycan köçkünlərinin Şuşa və Laçına qayıtmasını nəzərdə tutur. Daha doğrusu, biz 1988-ci ilə qayıdırıq. Samvel Babayan erməni tərəfi üçün bu qərarların qəbul edilməsi yolunda Azərbaycan prezidenti Əliyevin mövqeyinin əngəl olduğunu söyləyib: "Məsələ burasındadır ki, Azərbaycan prezidenti 7 deyil, 12 rayonun hamısını birdən istəyir. Bundan başqa, Azərbaycan hər hansı ölkənin, istər Rusiya, istərsə də başqalarının sülhməramlılarının bölgəyə yerləşdirilməsinin də əleyhinədir..."

**Azərbaycan prezidentinin bu taktikasını dəyişəcəyi barədə suala cavab olaraq Samvel Babayan bunun fəlakət olacağını bildirib:** "Çünki Qarabağda heç bir adam qalmayacaq, Sünik üçün də təhlükə yaranacaq və biz hadisələrin neqativ yöndə inkişafının şahidi olacağıq".

Qondarma respublikanın "prezident aparatı"nın rəhbər müavini David Babayan bu deyilənlərə də münasibət bildirib. Onu sözlərinə görə, 1988 və 1993-cü illərin sərhədlərinə qayıtmaq mümkün deyil. David Babayan Kəlbəcərin də geri qaytarılmasının istisna olunduğunu söyləyib (erməni quldur Kəlbəcərin adını Karvaçar olaraq adlandırıb - red.)

Kəlbəcər Ermənistandakı Arpa və Vorotan *(Bərgüşad çayı-red.)* çayları üçün su mənbəyidir. Bildiyimiz kimi, Göyçə gölü həmin çaylardan qidalanır.

Qondarma qurumun daha bir "rəsmisi", "xarici işlər naziri" Karen Mirzoyan da Qarabağ münaqişəsinin nizamlanmasının Qarabağ ermənilərinin öz müqəddəratını həll etmək hüququnun tanınmasından keçdiyini söyləyib.

❑ Vaqif HÜSEYN

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016



# Təhsil haqqını ödəmək üçün sabah son gündür - tələbə və valideynlər çarəsiz durumda...

## Sahə ekspertləri vəziyyətdən optimal çıxış yolu göstərir

**Avqustun 25-i ali təhsil müəssisələrinin ödənişli ixtisaslarına qəbul olan abituriyentlərin tələb edilən təhsil haqqını ödəmək üçün son gündür. Bu da onların üzündəki təbəssümü sanki dondurub. Çünki təhsil haqqını ödəyə bilməyən abituriyentlər tələbə adından məhrum olacaq.**

1-ci kurs olduğu üçün təhsil haqqının hissələrlə deyil, bütöv istənilməsi valideynləri çıxılmaz vəziyyətə salıb. Fantastik təhsil haqqını, kirayə pulunu, tələbənin yaşayışını ödəməyi gözə ala bilməyən, buna orta aylıq gəlirinin çatmayacağını bilən bir çox valideynlər ödənişli ixtisaslardan imtina edib. Bir sıra valideynlər isə bir qarın ac, bir qarın tox, borca girərək övladını çətinliklə də olsa oxutdurur. Ali məktəblərə qəbul olan 440 nəfər ixtisas seçimi etsə də, ərizəsini təsdiqləməyib. Nəticədə onlar ali məktəblərə qəbuldan kənarda qalıblar. Ümumiyyətlə, iyulun 29-dan avqustun 10-na kimi ali təhsil müəssisələrinə ixtisas seçimində iştirak edən 38 min 113 abituriyent qəbul olunmaq istədiyi ixtisasları öz elektron ərizəsinə daxil edərək təsdiqləyib.

Təəssüflə qeyd etməliyik ki, ali təhsil müəssisələrində tətbiq edilən ödənişlər orta statistik azərbaycanlı ailəsinin illik büdcəsindən artıqdır. Digər ölkələrdə təhsil haqları əhalinin ümumi vəziyyətinə, gəlirinə görə müəyyənləşdirilir. Bir sıra Avropa ölkələrində isə ümumiyyətlə, təhsil haqqı yoxdur. Məsələn, İsveçrədə hətta özəl universitetin fəaliyyət göstərməsi qadağandır. Böyük Britaniya və Fransada təhsil haqları simvolikdir. Birləşmiş Ştatların özəl universitetləri isə tələbələrdən təhsil haqqı almadan onların 1/3-nə, təxminən 30 faizdən artığına təqaüd verir. Türkiyədə isə təhsil haqları ilə bağlı məsələlərə xüsusi nəzarət mexanizmi var. Hər hansı ali məktəbə imkan verilmir ki, istədiyi qiyməti qoysun. Müəyyən qurumlar əhalinin sosial vəziyyətini, onun illik nə qədər təhsil haqqı verə biləcəyini hesablayır.

Azərbaycanda isə tələbələrə heç bir güzəşt, tələbə krediti yoxdur. Hətta yenicə qəbul olan abituriyentlərə təhsil haqqını hissə-hissə ödəmək imkanı da verilmir. Bu yalnız 2-ci kursdan etibarən tətbiq edilir.

**“XXI əsr” Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bizim kimi ölkələrdə ödənişli təhsilin əslində 30 faizi ötməməli olduğunu dedi:** “Böyük fransız yazıçısı Viktor Hüqonun 14 yanvar 1850-ci ildə Fransa Qanunvericilik Assambleyasında maraqlı çıxışı olub. Hüqo Fransada təhsilin gələcəyi haqqında bunları deyib: "Dövlət tərəfindən yaradılan, eləcə də bütün insanlarıfitri istedada malik olanları və istedaddan kasad olanları cəlb edən, onları ən yaxşı müəllimlərlə, ən yaxşı tədris metodları ilə təmin edən, elmlik və müntəzəmlik nümunəsi olan bu gözəl ödənişsiz, əsl fransız milli təhsil sisteminin sayəsində milli düha, şübhəsiz ki, ən yüksək tərəqqiyə çata bilər. Elmin qapıları bütün bacarıqlı insanların üzünə taybatay açıq olmalıdır". Bu fikir indi də fransız təhsil sisteminin ana xəttini təşkil edir. İndi bir anlıq təsəvvür edin Qori Müəllimlər Seminariyası pullu olsaydı, bu qədər dühalar yetişə bilərdimi? Müasir dünyada təhsilin kütləviliyi onun ödənişli olmasına yol açdı. Ancaq ölkələr spesifikliyi ilə bir-birindən fərqlənir. Məsələn, bizim kimi ölkələrdə ödənişli təhsil 30 faizi ötməməli idi. Ödənişli təhsilin faizinin yüksək olması mütəxəssis hazırlığına da təsir edir. Yaxud Sovet İttifaqında təhsil pullu olsaydı, Qoşqar Əhmədov, Abbas Zamanov, Yəhya Məmmədov, Məcid Rəsulov, Cəlal Allahverdiyev, Arif Babayev və başqa görkəmli alimlər yetişə bilərdimi? Əlbəttə ki, yox. Bunların hamısı kasıb ailələrin övladları olub. “Pulun varsa, oxuya bilərsən, pulun yoxdursa, oxuya bilməzsən” fikrinin tətbiqi ölkə üçün mütəxəssis hazırlığına amansız zərbə vurub. Təhsil insanları yoxsulluğa sürükləməməlidir. Təhsil insanların rifah halının yaxşılaşdırılmasına xidmət edən əsas vasitəyə çevrilməlidir. Dünyanın inkişaf etmiş ölkələrində pulsuzluq təhsil almağın qabağını kəsmir. ABŞ elminin qüdrəti istedadlı şəxslərə elmin və təhsilin qapılarını açıq qoymaqla gücləndib. Boloniya razılaşmasının üzvü olan ölkələrin əksəriyyətində tələbələrə uzun müddətli aşağı faizli kreditlər verilir. Buna əməl edən ölkələr gələcəyini düşünən ölkələrdir. İndi təsəvvür edin, kasıb ailənin övladı Tibb Universitetinə daxil olub. Təhsil haqqı 3000 manatdır. Təhsil haqlarının ödənilməsi də valideynlərin məzuniyyət vaxtına təsadüf edir. Belə çıxır ki, kasıblar övladlarının təhsili üçün evlərini satmalıdır? Bəs tələbənin geyimi, yol xərcləri, qidalanması və s. necə olsun? Tələbə valideynlərinin düşdüyü vəziyyətə görə daim narahatçılıqmı keçirməlidir? Buna görə də valideynlərə təhsil haqqının ödənilməsində güzəştlər edilməlidir. Tələbələr 1-ci ildə təhsil haqqının yarısını, yaxud 30 faizini ödəsə, ali məktəb müflisləşməz".



Etibar Əliyev



Firudin Cəlilov

**E.Əliyev bildirdi ki, universitetlər tələbə gəlirlərinə göz dikməməlidirlər:** “Ali təhsil müəssisələri vəsait qazanmağın yollarını axtarmalıdır. Onsuz da ali məktəblər semestr boyu ödəniş etməyən tələbəni xaric edirlər. Dövlət sifarişinin yerlərinin artırılması daha yüksək bal toplayanların ali məktəblərə daxil olmasına şərait yarada bilər. Məncə, hökumət qanadlarını daha geniş açıb təhsili himayə etməlidir. Əhalinin gəlirlərinin aşağı düşdüyü bir şəraitdə təhsil haqlarını bu cür sabit saxlamaq olmaz. Builki tələbə qəbulunun nəticələri onu göstərdi ki, yüksək təhsil haqları ilə ali məktəbin plan yerlərini doldurmaq mümkün deyil. Gələcəkdə bunun təkrarlanmaması üçün ali məktəb rəhbərləri papaqlarını qarşılarına qoyub düşünməlidirlər”.

**Sabiq təhsil naziri Firudin Cəlilov bildirdi ki, dövlət ali təhsil müəssisələrinə təhsil haqqını hissə-hissə almaq göstərişi verilməlidir:** “İnsanların maddi imkanını nəzərə almaq lazımdır. Əlbəttə ki, özəl ali təhsil müəssisələrinə bunu diktə etmək olmaz. Amma dövlət ali təhsil müəssisələrinə göstəriş vermək olar ki, 1-ci kursda da təhsil haqqını hissə-hissə alın. Burada çətin heç nə yoxdur. Bu, tələbə kreditləri məsələsini də gündəmə gətirir. Bu məsələ dəfələrlə gündəmə gətirilsə də reallaşdırılmır. Çünki oxumaq havayı deyil. Oxumaq üçün pul ödəmək lazımdır. Bunu da ya dövlət ödəməlidir, ya da tələbənin valideyni. Özəl ali təhsil müəssislərində valideynlərin özləri ödəyir. Amma dövlət hesabına olan universitetlərdə bunu valideyn ödəməməlidir. Tələbə krediti olarsa, tələbə təhsil haqqını ödəyər, sonra da bir neçə il işləyib o pulu geri qaytarar”.

❑ Günel MANAFLI




# Burun əməliyyatında ölən gənc qız təzəcə tələbə olubmuş

## Gəncin doğmaları həkimləri reanimasiyalıq elədilər; **Adil Qeybulla:** “Bu cür halların hər biri araşdırılmalı və fərdi yanaşılmalıdır”

**İnsanların gözəlləşmək istəyi bəzən onların həyatına son qoyur. Zahiri görkəmindən narazı qalıb qüsurlarını aradan götürmək niyyətində olanlar isə bir çox hallarda uğursuzluğa düçar olurlar. 30-40 dəfə əməliyyata girib istədiyi nəticəni əldə edə bilməyən məşhurların da sayı kifayət qədərdir.**

Ümumiyyətlə, estetik əməliyyatın böyük risk olduğunu düşünənlər və qüsurları olmasına baxmayaraq bundan yayınan insanlar da var. Amerika və Avropada geniş yayılan estetik əməliyyatlar Azərbaycanda da vüsət alıb. Əvvəllər bu “gözəllik əməliyyatları”na yalnız müğənnilər, aktrisalar girirdisə, indi sadə vətəndaşlar da girir. Bunların arasında burun əməliyyatları çoxluq təşkil edir. Hətta küçədə insanların, xüsusən də xanımların burunlarına diqqət etsək, bizdə sanki onların burunlarının eyni olduğu təəssüratı yaranacaq. Çünki eyni formada əməliyyat edilir. Bəzən də burun estetik əməliyyatları uğursuzluqla nəticələnir.

Ötən gün Gəncədə 17 yaşlı qız burun əməliyyatı zamanı dünyasını dəyişib. Burun çəpərindən əməliyyat edilməsi üçün mərkəzə daxil olan 1999-cu il təvəllüdlü Aygül Orucovanın səhhəti əməliyyatdan sonra pisləşib və ona 30 dəqiqəyə kimi tibbi yardımlar göstərilsə də, həyatını xilas etmək mümkün olmayıb. Gəncədə əməliyyat zamanı ölən qızın qohumları iki həkimə bədən xəsarətləri yetiriblər. Bu barədə APA-ya əməliyyat aparılan “Yeni Gəncə” özəl tibb mərkəzindən məlumat verilib. Məlumata görə, ötən gün mərkəzdən bildirilib ki, A. Orucovanın qohumları əməliyyatı həyata keçirən həkim və anestezioloqu döyüblər. Xəsarət alan həkim və anestezioloq xəstəxananın reanimasiya şöbəsinə yerləşdiriliblər. Aygül Orucova bu il Bakı Dövlət Universitetinə qəbul olub. Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Hüquq-mühafizə orqanları tərəfindən araşdırma davam etdirilir.

Xatırladaq ki, bu baş verən ilk hadisə deyil. Ötən il də Azərbaycan Maliyyə-İqtisad Kollecinin tələbəsi 18 yaşlı Leyla Mürsəlova burun əməliyyatı zamanı dünyasını dəyişmişdi. Dünya təcrübəsində də estetik əməliyyat zamanı həyatını itirən kifayət qədər insanlar olub. Bu cür ölüm hallarının baş verməsinə səbəb həkim səhlənkarlığıdır ya yox, bunu demək hələ ki tezdir. Ümumiyyətlə, ölüm riski bütün əməliyyatlarda olduğu kimi estetik əməliyyatlarda da ola bilər. Burun, döş və üz gərdirmə kimi əməliyyatlar zamanı əgər xəstədə hər hansı sistematik bir problem yoxdursa, ölüm riski 10 min nəfərdən birində və ya ikisində özünü göstərə bilər. Amma liposaksiya, yəni yağ aldırma əməliyyatlarında bu faiz mində bir, ya da mində iki ola bilər. Liposaksiya əməliyyatlarında yağ parçacıqlarının damarları tıxaması nəticəsində yağ emboliyası baş verə bilər ki, bu da ölüm səbəbidir. Ümumən həkim əməliyyat qərarını vermədən öncə xəstəni hərtərəfli müayinə etməli, onun narkoza davamlılığını, ürək və digər orqanlarını, qan analizlərini yoxlamalıdır. Hətta vəziyyəti ağır olan xəstələr belə yetərli müayinə və müalicə olunduqdan sonra istədikləri estetik əməliyyata hazır ola bilirlər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla bildirdi ki, bu cür hallar araşdırılmalı və fərdi yanaşılmalıdır:** “Bu hadisənin səbəbi araşdırılmadan rəy vermək düzgün deyil. Xəstəxanada, əməliyyat zamanı dünyasını dəyişmiş hər bir şəxs mütləq tibbi ekspertizadan keçməli, müayinə olunmalı, ölümün səbəbi aydınlaşdırılmalıdır. Yalnız bundan sonra biz günahkar axtara bilərik. Yoxsa bizim danışdığımız bütün söhbətlər predmetsiz söhbətlər olacaq. Ona görə ki, biz burada ölümün səbəbini bilmirik. Ona görə də hesab edirəm ki, bu cür məsələlərin hər birinə ekspertiza rəyi olduqdan sonra düzgün və obyektiv rəy vermək olar. Burunun əməliyyat səbəbi çox ola bilər. Həmçinin burunda müəyyən qüsurlar ola bilər ki, onların korreksiyası həyata keçirilsin. Amma əsas məsələ odur ki, bu əməliyyat zamanı ümumi narkoz həyata keçirilir. Buna görə də yanaşı, ağır xəstəlikləri olanlar həyati göstərişi yoxdursa, narkoza girə bilməzlər. Amma müəyyən ağırlaşmalarda əməliyyat olunmalıdır. Ona görə də bu cür halların hər biri araşdırılmalı və fərdi yanaşılmalıdır”.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

# Qadınlara qarşı artan şiddət, total qətllər... səbəb kasıblıqdır?

## Novella Cəfəroğlu: "Bu hadisələr kişilərin ailə, mental dəyərlərə qiymət verməməsi ilə bağlıdır"



**Son bir ayda qadınlara qarşı zorakılıq faktlarının sayı artıb. Kriminal xronikada demək olar ki, hər gün əri, nişanlısı, keçmiş əri tərəfindən qətlə yetirilən, yaralanan qadınlarla bağlı xəbərlər olur. Qətllərin, yaralamaların böyük əksəriyyəti isə ya qısqanclıq zəminində olur, ya da tamah məqsədilə. Bir çox hallarda isə maddi imkansızlığı və bunun gətirdiyi psixoloji gərginliyi səbəb olaraq göstərirlər.**

Son bir həftədə baş verən bu tip hadisələrin bir neçəsinə nəzər salaq. 17 avqust: Bakıda qeyri-rəsmi nikah münasibətində olduğu Altay Həsənov tərəfindən öldürülən Yasəmən Novruzovanın hamilə olduğu açıqlanıb. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində A.Həsənovun Y.Novruzovanı qətlə yetirərək yaşadığı evin həyətində basdırdığı məlum olub.

**17 avqust:** Türkiyənin Trabzon şəhərində yaşayan 33 yaşlı azərbaycanlı qadın Gülxanım Əkbər axşam saatlarında qardaşı Əli Əkbər tərəfindən bıçaqlanıb. Bu barədə Türkiyə mətbuatı məlumat verir. Məlumata əsasən, G.Əkbər aldığı xəsarət nəticəsində qanaxmadan vəfat edib. Polis tərəfindən saxlanılan Ə.Əkbər bacısının pulunu mənimsəmək məqsədilə qətl törətdiyini etiraf edib.

**17 avqust:** Gəncədə qısqanclıq zəminində keçmiş həyat yoldaşını öldürüb, onun bacısını isə yaralayıb hadisə yerindən qaçan şəxs polis tərəfindən saxlanıb. Məlumata görə, avqustun 17-də keçmiş həyat yoldaşı, 1986-ci il təvəllüdlü Məhəbbət Vəliyevanı bıçaqla qətlə yetirib hadisə yerindən qaçan Samux rayon Əhmədbəyli kənd sakini, 1984-cu il təvəllüdlü Ruslan Qurbanov polis tərəfindən saxlanılıb. R.Qurbanov həyat yoldaşını şəhərin Cavad xan qəsəbəsində yaşayan keçmiş baldızı, 1983-ci il təvəllüdlü Naibə Vəliyevanın evində qətlə yetirib. Cinayəti törədən şəxs N.Vəliyevanı da sol bud nahiyəsindən bıçaqla yaralayıb. R.Qurbanovla Məhəbbət Vəliyevanın evliliyindən 3 övladı var.

22 avqust: Binəqədi qəsəbəsində yaşayan Əfsanə Məmmədovanın evində tanışı - Gədəbəy rayon sakini Fidani İsmayılov münaqişə zəminində Əfsanəyə və onun qardaşı Anara bıçaqla xəsarət yetirib. Hadisə nəticəsində Anar hadisə yerində ölüb, Əfsanə Məmmədova isə xəstəxanaya yerləşdirilib. Bıçaqlanmaya səbəb isə qadının evli sevgilisindən xəbərsiz olaraq qardaşı ilə dənizə getməsi olub.

Suraxanı Rayon Prokurorluğundan verilən məlumata görə, Qaraçuxur qəsəbəsinin sakini Tural Kazımov həyat yoldaşı Maya Kazımovanı boğaraq qətlə yetirib. İlkin məlumata görə, hadisə qısqanclıq zəminində baş verib.

Tovuzda 18 yaşlı qızın başı kəsilmiş cəsədi tapılıb. Sakinlərin verdiyi məlumata görə, 1999-cu il təvəllüdlü Günay Gülməmmədovanın cəsədi çay kənarında başı kəsilmiş halda tapılıb. Sakinlərin sözlərinə görə, Günayın ailəsinin heç kimlə münaqişəsi olmayıb. Kənddə ilk dəfədir belə hadisə baş verir.

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a açıqlamasında dedi ki, son aylarda qadınlara qarşı zorakılıq faktları artıb. Onun fikrincə, cəmiyyətin bu barədə həyəcan təbili çalmaması xoş hadisə deyil. Belə ki, televiziya kanalları da bu ağrılı problemə diqqət ayırmırlar:** "Cəmiyyətin fikrini buna yönəltmək, televiziyada demək lazımdır. Buna cavabdeh orqanlar işə qarışmalıdır. Şiddətə qarşı qanunlar var - polis, bələdiyyələr, qadınlarla bağlı qurumlar. Onlar diqqətini bu məsələyə yönəltməlidir. Yerli televiziyalar sosial xarakterli verilişlərdə, xəbərlərdə diqqəti buna yönəltməlidir. Mövzunu gündəmə gətirib, bu cür cinayətlərə qarşı qanun olduğunu xatırlatmalı, qanuna tabe olmayan insanları cəzalandırmalıdır. Döyülmək öldürməyə gətirir. Bu şiddət öncə evdə baş verir, ardınca ölüm gəlir".

**Müsahibimiz hesab edir ki, bu olayın səbəbi olaraq insanların maddi durumunu əsas gətirmək olmaz. N.Cəfəroğlunun fikrincə, kasıblığın insanda aqressiya, şiddət yaratması ilə bağlı deyilənlər qatilə yaradılan bəhanədir:** "Kasıbçılıq ancaq Azərbaycandadır? Bütün dünya kasıbçılıq içindədir. Sadəcə, dəyərlər dəyişib. İnsanın ağlında olan vəhşilik artıb və onu həyata keçirir. Kasıb adam arvadını öldürər? Kasıb adam ailəsini dolandırmaq üçün əlavə yollar axtarar, zəhmət çəkər. Hər şeyi iqtisadi şərtlərin üzərinə atmaq olmaz. Qolçomaq vaxtında, sovet dövründə kasıb ailə yox idi? Onda arvadı öldürürdülər?"

**Müsahibimiz düşünür ki, bu hadisələrin baş verməsinin səbəbi kişilərin ailə, mental dəyərlərə qiymət verməməsi ilə bağlıdır. Artıq qadın hər kiçik gərginlikdə qurbana çevrilir və bu, daha sonra "namus", "əxlaq"la yalandan pərdələnir. N.Cəfəroğlu ictimai qınağın və qanunların bu məsələdə sərt olmasının tərəfdarıdır.**

❑ Sevinc TELMANQIZI


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**





## Bakıda üzərində ermənicə yazılı, istehsal tarixi yanlış məhsul satılır

**Bakıda mağazalarda vaxtı keçmiş, arxasında ermənicə yazı olan "monpasye" satılır. Musavat.com-un məlumatına görə, paytaxtın mərkəzində yerləşən mağazaların birində satılan bu məhsul mərkəzi Rusiyanın Nijni Povaljye şəhərində yerləşən "NP Konfil" şirkətinin istehsalıdır.**

Məhsulun qabının arxasında erməni, qazax və rus dillərində yazı var. Lakin məsələ burasındadır ki, həmin yazının üzərinə yapışdırılan Azərbaycan dilində yazılmış kağızda qeyd olunan tarix də səhv göstərilib. Belə ki, qabın üzərində vurulmuş tarixdə 03.02.2016-cı il tarixi göstərildiyi halda, Azərbaycan dilindəki kağızda bu, 19.03.2018-ci il kimi qeyd olunub.

Məsələ ilə bağlı danışan **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, Nazirlər Kabinetinin 94 saylı qərarında qeyd olunur ki, əmtəə bazarında olan bütün mallar xarici dillə yanaşı, Azərbaycan dilində də markalanmalıdır: "Çünki istehlakçının mal haqqında məlumat almaq kimi beynəlxalq və yerli hüquqları var. Qonşu ölkələrdə bu cür hal yoxdur ki, başqa dil altında məhsullar satılsın. Təəssüf ki, Azərbaycanda illərdir bu məsələ həll olunmamış qalır. Bəzi mağazalarda ümumiyyətlə 60 faiz malların üzərində milli dildə heç bir yazı tapmaq olmur. Təxminən 80 faiz texniki vasitələrin, o cümlədən avtomobillərin sənədləri xarici dillərdə yazılıb. Yəni bu bir problem olaraq qalmaqdadır. Lakin qanun qadağan etmir ki, malın üzərində erməni dilində informasiya olsun. Eyni zamanda bu malı Azərbaycana gətirən biznes qurum onun üzərinə yapışqanlı kağız vurmalı deyil. Qarşı tərəflə müqavilə bağlayan zaman şərtləri qoymalı, dövlətin qanunlarını bildirməlidir. Lazım olsa, məhsulun Azərbaycan dilində markalanmasına kömək etməlidir".

**Ekspertə görə, məhsulun şirkət tərəfindən qeyd olunan istehsal və istifadə müddətini göstərən tarix birmənalı olaraq saxlanılmalıdır:** "Markalanma zamanı istehsalçı nə tarix qoyubsa, məhsulun da üzərində həmin tarix olmalıdır. Bunu dəyişmək istehlakçını aldatmaq deməkdir. Ümumiyyətlə, bu cür yapışqanların vurulmasının tərəfdarı deyiləm. Çox təəssüf ki, bu cür istehlakçının aldadılması halları qalmaqda davam edir. Qeyd etdiyim kimi, qanun məhsulun üzərində başqa dildə yazının olmasını qadağan etmir, ancaq bir şərtlə ki, orada Azərbaycan dili də olsun. İndi yapışqanlı kağızı bir çıxış yolu kimi tapıblar. Lakin bu barədə qanunda heç bir şey yoxdur. Qanunda yazılıb ki, məhsul Azərbaycan dilində də markalanmalıdır".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 186 (6507) 24 avqust 2016

# Vüqar Əhməd: "Gülənçilər qızım üçün təklif göndərdilər..."

## "Prezident həmin sərəncamı verməsəydi, mən repressiyaya məruz qalacaqdım"





**"Yeni Müsavat"ın budəfəki qonağı nəğməkar şair, filologiya elmləri doktoru, professor Vüqar Əhməddir. Şairlə evində görüşüb söhbətləşdik:**

***- Necəsiz Vüqar bəy? Deyəsən, bu il istirahətinizi Bakıda qərarlaşdırıbsız?***

- Keçən il də Bakıda keçirmişdik. İki ildir ki, yayı Bakıdayıq.

***- Son yaradıcılığınız nə yerdədir? Hazırda nədən yazırsız?***

- Bugünlərdə Nailə Mirməmmədli mənim Vətən haqqında yazdığım şeirə bir mahnı yazıb, Almaxanımın (qızını nəzərdə tutur G.X.) 15 yaşı münasibətilə ad günündə ona hədiyyə göndərdi. Daha sonra bəstəkar Ruslan Səfəroğlu var, o da mənim sözlərimə Mətanət İskəndərli üçün mahnı yazıb. Böyük Şəhriyarın fars dilində yazılmış şeirlərinin filoloji tərcüməsi ilə məşğulam. Bu, mənim akademik elmi işimdir.

***- Maraqlıdır, son şeirlərinizin mövzusu əsasən nədən ibarətdir?***

- Əsasən Vətən haqqında. Ümumiyyətlə, bütün şeirlər məhəbbətdən yaranır, anaya, Vətənə məhəbbət. Əsas leytmotiv isə vətəndir. Süleyman Rüstəm deyirdi: "İlk pənahım, son pənahım Vətəndir".

***- Sizi daha çox nəğməkar şair kimi tanıyırıq. Daha çox hansı müğənni şeirlərinizə yazılmış mahnıların ifaçısı olub?***

- 20-25 il ərzində 500-dən çox şeirimə mahnı yazılıb. Ən çox ifa edən xalq artisti, sevimli müğənnimiz Brilliant Dadaşova olub. O, 20-yə yaxın mahnı ifa edib. Müğənni var ki, 5 mahnı, digəri 6, 10 mahnı ifa edib. Böyük xanəndəmiz Alim Qasımov Elmira Rəhimova ilə birlikdə şəhidlərimizə həsr olunan "Rekviyem"i oxuyublar. Ağaxan Abdullayev də bir mahnı oxuyub. Onların da hamısının musiqisi əməkdar incəsənət xadimi Nailə Mirməmmədliyə aiddir.

***- Bəs daha çox hansı mahnı könlünüzcə olub?***

- Brilliant Dadaşovanın ifa etdiyi "Arzular" mahnısından çox xoşum gəlib, "İzim qalacaq" çox şöhrətli olub. Hətta o mahnılar mükafatlar qazanıb, "İlin mahnısı" olub. Daha sonra Baloğlan Əşrəfovun oxuduğu "Anam mənim" mahnısı bütün İranda, Türkmənistanda, hətta Amerikada şöhrət qazanıb. Bu mahnı həm ifaçıya, bəstəkara, həm də şair kimi mənə böyük şöhrət gətirdi. Demək olar ki, bütün mahnıların 90 faizi mənim ürəyimcədir.

***- Mərhum müğənnimiz İlhamə Quliyeva sizin şeirlərinizə müraciət etmişdi?***

- Bir dəfə. Nailə ya da ki, Hikmət Mirməmmədlinin yazdığı hansısa mahnını mənim yaradıcılıq gecəmdə oxumuşdu. Onunla yaradıcılıq əlaqəmiz olmayıb.

## "Qələm adamı "qanuni oğru"ya rəğbət bəslədiyini ictimailəşdirsə, onun nüfuzuna xələl gələ bilər"

***- Mərhum müğənnidən söz düşmüşkən, bugünlərdə onun doğum günü anıldı. Amma sükutla. Özünü daim "kraliça" adlandıran bir sənətçinin doğum günündə məzarı üstə cəmi-cümlətanı 3 dəstə gül çələngi qoyuldu, günün sonunda isə həmin güllər dağıdıldı, oğurlandı. Sizcə, sənətçinin ölümündən sonra ona qarşı bu cür münasibət nədən qaynaqlana bilər, doğmalarının biganəliyi, yoxsa ömrünün sonlarına yaxın cəmiyyətdəki nüfuzunu itirməsi?***

- Allah rəhmət eləsin, indi haqq dünyasındadır. İlhamə Quliyeva yaxşı, professional müğənni idi. Elə də səsi yox idi, amma az səsi ilə özünü sevdirə bilirdi. Çünki müğənni, sənətkar üçün əsas səsdir. Mən bir dəfə radionun baş redaktorunun yanında onun üzünə də demişdim. Həmin vaxt nəsə bir qədər qeyri-təvazökar danışdı, dedim ki, "İlhamə, sənin bir damcı səsin var, belə danışma. Sən çalış həmişə hörmət elə ki, deməyək səsin yoxdur". O da tez "mənim professor" qardaşım deyib könlümü almağa çalışdı ki, gerisini deməyim (gülümsəyir). Amma professional idi. 90-cı illərdə dəbdən düşmüşdü. Sonra Faiq Sücəddinovun "Neylərsən" mahnısı ilə yenidən sevildi. Çoxlu sayda orden, medal aldı. Deyərdim ki, Brejnev qədər medallar aldı. Amma görürsüz ki, öləndən sonra məzarı üstə gələn yoxdur. Vahid deyir ki, "Gəlməsə üstümə yarım mən öləndən sonra, tutmaz aram məzarım mən öləndən sonra". Baxıram, indi ona yazığım gəlir, ürəyim ağrıyır. Onda da ona yazığım gəlirdi. İstəyirdi ki, "mən-mən" deyib musiqi aləmində hegemonluq etsin. İndi o zəmanə deyil, kim kimin üstündə ağalıq edə bilər? Qohum-əqrəbası arasında da mal-dövlət üstündə davadır. Sonsuzun malını yemək olar? İlhamədən qalanı uşaq evinə versələr daha yaxşı olar. Ya da ki, Orxana versinlər. Hər halda, övlad kimi onu sayıb, toyunu edib, övladına nəvə deyib... Bu gün də Rübabə Muradova, Şövkət Ələkbərova üçün ağlayırlar. İlhamə xanım özünü çox xoşbəxt sayırdı, amma gördüyünüz kimi, bədbəxt sənətkardır ki, qəbri üstünə gələn yoxdur.

***- Bir qədər də qızınız Almaxanımdan danışaq. Yeniyetmə olmasına baxmayaraq, artıq bu sənətdə fərqlənməyə başlayıb.***

- Nailə Mirməmmədli o gün doğum günündə ATV kanalında onu təbrik etdi, dedi ki, "mən inanıram ki, 10 ildən sonra o, xalq artisti olacaq, çünki bəzi xalq artistlərindən yaxşı oxuyur" (gülümsəyir).

***- Hiss olunur ki, ən böyük dəstəyi də sizdən alır.***

- Bəli.

***- Bu sənəti davam etdirmək fikri varmı?***

- Bəli. Gələn il, inşallah, sənədlərini Milli Konservatoriyanın muğam şöbəsinə verəcək.

***- Bir neçə il bundan əvvəl AzTV-dən yaman gileylənirdiniz, hətta sizə qarşı efir qadağası olduğunu bildirmişdiniz. İndi vəziyyət nə yerdədir?***

- Hələ də davam edir, daha kəskin, daha pis. Özümə söz verirəm ki, bu kanalla bağlı danışmayım, amma sual veriləndə qarşımdakı jurnalistə hörmət əlaməti olaraq çalışıram ki, cavab verim. Həmişə demişəm ki, Alışanov yaxşı insan, oğlandır, (Arif Alışanov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri G.X.), yenə də mənim ona hörmətim var. Sadəcə vəzifə onu dəyişdi. İstəməzdim onunla bağlı söhbətlər açılsın... Elə oldu ki, Eldar Mahmudovun adamını yerimə qoyub məni oradan uzaqlaşdırıb, telefonlarıma cavab vermədi. Axırda gördünüz, Eldar Mahmudova nə oldu, qurban olum Allaha. Bütün kanal sədrləri belədir də. Başqa bir kanalın sədri qardaşım idi, indi saymır məni, deputat seçilmədim deyə salamı kəsdi. Deputatlığa namizəd olanda "yuxarıdan" dedilər ki, "Vüqar gözləsin". Bir milyon dollar, torpaq, mülk təklif edirdilər, həyat yoldaşım şahiddir. Götürmədim, dedim ki, mən Rəsulzadənin nəvəsiyəm. İndi rahatam, ac ol, kişi ol. Yəni tərcümeyi-halımı ləkələməmişəm. Mən də alsaydım, bu gün 450 manat maaşa baxmazdım, obyektim-filan olardı. Eldar Mahmudov nələr etmişdisə, gəldi burnundan. Mən də etsəydim, Vüqar Əhməd də ləkələnərdi. Evimin qapısı açıq yatıram, aparılası nə var ki, hamısı köhnədən qalma mebellərdir (gülümsəyir).

***- Azərbaycan Yazıçılar Birliyi ilə münasibətiniz necədir? Qurum sizə maddi köməklik edirmi?***

- 20 ildən çoxdur ki, AYB üzvüyəm, Anar müəllimin həmişə hörmətini saxlamışam, çünki uşaqlıqdan sevimli yazıçım olub. Amma heç bir köməklik olmayıb. Sadəcə, romanımın təqdimatını orada keçirmişəm. Yazıçılar Birliyindən heç nə görməmişəm, heç nə də gözləmirəm, çünki oranın öz komandası var. Rəhmətlik Qabil mənə deyirdi ki, "Yazıçılar Birliyi Əliağa Vahidi saymırdı, o da onları saymırdı". İndi pis çıxmasın, qurum ola bilsin ki, məni saymır, ora getmirəm. Qurban olum xalqıma. Cənubi Azərbaycanda toylarda Seyid Əzim Şirvanidən, Vahiddən oxuyurlar, bir də məndən. Bu mənim üçün böyük amildir. Dövlətdən nə ev, nə maşın almamışam və ummuram da. Bilirəm ki, ölənəcən də sadaladıqlarım mənə verilməyəcək. Çünki Rəsulzadədən yazan adama verməzlər axı. Cənab prezident istəsə də, onun ətrafı buna imkan verməyəcək. İlk dəfə Rəsulzadə haqqında olan romanımı işıqlandıran "Yeni Müsavat" qəzeti oldu. Mənə bir kanal rəhbəri zəng edib ki, biz səni artıq efirə verə bilməyəcəyik, çünki "Yeni Müsavat" bu barədə yazıb. Bir həftə keçdi, prezident Məhəmməd Əmin Rəsulzadənin yubileyi ilə bağlı sərəncam verdi. Mən də sərəncamı kitabın birinci səhifəsinə saldım. Həmin adam mənə zəng edib dedi ki, doğrudan sən xoşbəxt adamsan, gör Allah səni necə qorudu. Yəni prezident həmin sərəncamı verməsəydi, Vüqar Əhməd tamamilə repressiya edilərdi. Onsuz da cəmi 3 kanala çıxıram. Mənə televiziya - filan lazım deyil. Amma uşağım oxuyur, istəmirəm ki, repressiyaya uşağım düşsün".

## "Arif Alışanov məni işdən çıxarıb, yerimə Eldar Mahmudovun adamını götürdü"

*Bu məqamda söhbətimizin ahəngi tamamilə dəyişib, nurçularla bağlı məsələlərin üzərində köklənir:*

- Bilirsiz ki, bu nurçulara qoşulanlar pula satılıb. Bizə də gülənçilər tərəfindən təklif olunub. Qızım Almaxanım 13 yaşında beynəlxalq müsabiqədə qalib oldu. Onda bizə zəng gəldi ki, Almaxanım Türkiyədə 20 günlük turnir konsertlər versin. Konsertlər üçün kartlar da vermişdilər, nə istəyir geyinmək və sairə üçün. Hardasa 20 min lirəlik kart idi. Dedim ki, bir şərtlə icazə verirəm, bacım da onunla getsin. Sonra araşdırdım ki, bu, Gülənlə bağlı festivaldır, onu təşkil edənlər isə nurçulardır. Zəng etdim bizimlə əlaqə saxlayan xanıma dedim ki, "belə tanınmış şair, aliməm, heç bir təriqətə-filan meyilli adam deyiləm, bir Allaha, bir də peyğəmbərə iman gətirirəm. Mən tərcümeyi-halımı ləkələyə bilmərəm. Dedim ki, pula satılan adam deyiləm. Cavab verdilər ki, Türkiyəni istəmirsən, onda Almaniyaya göndərək. Həm Almaniya, həm də Afrika konsertləri təklif olundu. Üstəlik, pul, şöhrət də öz yerində. Dedim ki, yox. Qızım da uşaq idi, gedib Türkiyəni görmək istəyirdi, başa saldım ki, qızım, biz pula görə ailəmizin adını ləkələyə bilmərik. İndi hansı ziyalılar ki, onlardan pul almışdılar, onu qusurlar. O gün deyirəm ki, şükür, necə rahatam, onlara qoşulsaydıq, indi mən də qorxacaqdım (gülür). Səməd Vurğun demiş, "Əyilməz vicdanın böyük heykəli!"

***- İndi şou-biznesdə hər əlinə mikrofon alan özünə müğənni dediyi kimi, əli qələm tutan hər kəs özünə şair, yazar deyir. Bəs sizcə, kimə yazar, şair demək olar?***

- Şair odur ki, heç olmasa bir şeirini xalq bilsin, sevsin, bilsinlər ki, belə bir şair var. Amma indi bəzi şairlərimiz var ki, Səməd Vurğunu silirlər, Sabir üçün deyirlər meyxanaçıdır, Əliağa Vahidi şair saymırlar, dahi Füzulini şair hesab etmirlər, Cəlil Məmmədquluzadənin üstündən xətt çəkirlər. Beləliklə diqqəti cəlb etmək istəyirlər. Gənclərin içərisində yaxşı şairlər var, amma klassiklərin üstündən xətt çəkmək olmaz. Şair odur ki, ilahidən gəlməlidir, oturub qafiyə tapmaqla şairlik olmaz. Şair deyəndə göz qabağına Mikayıl Müşfiq, Cavid əfəndi, Əliağa Vahid, Ramiz Rövşən gəlir.

***- Bugünlərdə məşhur avtoritet Rövşən Lənkəranskinin ölümü cəmiyyətdə böyük ajiotaj yaratdı. Bir çox siyasətçilər, tanımışlar, hətta şou-biznes nümayəndələri onun ölümü ilə bağlı öz təəssüratlarını bölüşdülər. Lakin onlar arasında söz, yazar adamlarını görə bilmədik. Bəs siz bu məsələni necə dəyərləndirirsiz? Sizcə, niyə cəmiyyət bu cür insanlara böyük rəğbət bəsləyir?***

- Qələm adamı "qanuni oğru"ya rəğbət bəslədiyini ictimailəşdirsə, nüfuzuna xələl gələ bilər. Amma qəlbimizdə ona qarşı böyük məhəbbət var, Allah ona rəhmət eləsin. Lənkəranskini şəxsən tanımırdım. Amma haqqında eşitmişdim. Onun ölümü mənə də çox pis təsir etdi, çünki azərbaycanlılara çox böyük dəstək olurdu. Şərəfsiz ermənilərin əli ilə öldürüldü. Özü Türkiyədə yaşasa da əli Rusiyada idi. Mənim orada yaşayan qohumlarım var, onlar deyirdi ki, bizim mağazamıza heç bir oğru, polis gələ bilməz, çünki Rövşənin adı var üstümüzdə. O, kişi olub. Bizim məmurlarımızın içində də oğrular var. Belələrindən biri ölsə, gözüm də yaşarmaz, amma Rövşən üçün ürəyim ağrıdı. Adı "qanuni oğru"dur, amma o, heç vaxt oğru olmayıb, atasının intiqamını alıb, sonra da Qaçaq Nəbi, Kərəm kimi olub. O, bizim müasir dövrümüzün Qaçaq Nəbisidir. Onun xüsusiyyətləri Koroğluda və digər xalq qəhrəmanlarımızda da olub. Lənkəranski Azərbaycanın fəxr ediləsi oğlu idi.

Amma qaldı bəzi sənət, şou adamlarının ondan bəhs etməsi, bunların hamısı şou, özlərini reklam etməsi üçün idi. Məsələn, müğənni Elton onunla birlikdə şəkil çəkdirmişdi və aydın idi ki, o, həqiqətən Lənkəranskinin ölümünə sızlayır. Amma digərləri, guya evində bu dəqiqə matəmdir...

Eşitmişəm ki, o, həmişə ətrafına deyirmiş ki, bu yolda olmasın. Kim istəyər ki, bu cür olsun, əgər atasının qisasını almasaydı, cinayət, kriminal aləmə düşməzdi...

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 186 (6507) 24 avqust 2016



## Barbi gəlinciyinə görə 70 min dollar xərc çəkdi

Los-Anceles sakini onu əhatə edən bütün əşyaların Barbi gəlinciyi ilə bağlı olması üçün 70 min dollar sərf edib. 34 yaşlı Azusa Sakamoto bu günə qədər 140 ədəd gəlincik, 40 cüt ayaqqabı, 60 çanta alıb. Bundan başqa, otağının Barbi stilində təmiri və Barbi aksesuarları üçün də 1000 dollar xərcləyib. Yaponiyadan köçən qadın manikür ustası olaraq çalışır. 20 ildir ki, bu əşyaları, oyuncaqları yığır.

Özü etiraf edir ki, faktiki bütün gəlirini buna sərf edir: "Mənim bütün mənzilim Barbi atributları ilə doludur. Yataq otağım, xalçalarım, divarlarım, aksesuarlarım ancaq Barbidən ibarətdir". Qadin Barbi gəlinciyinə həsr olunmuş İnstaqram səhifəsinin də sahibidir. 2016-cı ilin aprelində məlum olmuşdu ki, Helsinkinin iflic olmuş sakini Barbi gəlinciyinə bənzəmək üçün 2 il boyunca 14 min dollar xərc çəkib. Jasmin Britni adlı qızı 1998-ci ildə maşın vurandan sonra xarici görünüşünü dəyişib və plastik əməliyyatların şəkillərini, videoçəkilişlərini sosial şəbəkədə paylaşıb. Onun geyim və makiyaj xərcləri valideynləri tərəfindən ödənilirdi.

## Bu ətri vurmurlar, "yeyirlər"...

Bolqarıstanda satışa yeni dezodorant çıxarılıb. Konfet şəklindəki bu dezodorant bütün pis qoxuları bədəndən apararaq 6 saata qədər gül qoxusu yayır. Maraqlıdır ki, bu dezodorantı bədənə vurmurlar, yeyirlər. Ventsislav Peychevin sahib olduğu Alpi adlı şirniyyat firmasının istehsalı olan "Deo Parfum Candy" konfet şəklindədir və onu yeyən insanın bədənindəki bütün pis qoxular gedir. Amma qoxunun təsir gücü yeyilən konfetin miqdarına və bədən ağırlığına görə dəyişir.




Konfet şəklindəki dezodorant fikri yeni deyil. Yaponiyada daha öncə bazara çıxarılan, amma uğur qazanmayan bir saqqız markası da çeynənildə eyni təsir gücünü yaradırdı.

## Türkiyədə "ilan uşaq" dünyaya gəldi

Türkiyənin Siyirt şəhərində, milyonda bir görünən və xalq arasında "ilan uşaq" kimi adlandırılan, ixtiyozis (dəri xəstəliyi) xəstəsi olan oğlan uşağı dünyaya gəlib. Bu şəhərdə hamilə Müzeyyen Karataş (24) sancılarının artmasına görə Siyirt Dövlət Xəstəxanasının təcili yardım şöbəsinə müraciət edib. Karataş ilkin müayinədən dərhal sonra qeysəriyyə əməliyyatına aparılıb. Türkiyə mətbuatı yazır ki, qadın hamiləliyi boyunca həkim müayinəsindən keçməyib. Buna görə də həm özü, həm də həkimləri üçün bu, şok olub. Həkimlər bildiriblər ki, qohum evliliyi çox olan bölgələrdə belə xəstəlikli uşaqlar da dünyaya gəlir. Amma uşağın dərisinin normal bir insan dərisinə çevrilməsi ehtimalı aşağıdır. Amma hər keçən gün uşağın dərisi özünü təzələyir və bu, onun yaşamaq şansını daha da artırır. Bununla belə, həkimlər bildirib ki, o, normal bir insanın bədəninə heç vaxt çevrilməyəcək. Uzun müddət normal bir dəriyə çevrilməsə də, ən azından daha az infeksiya keçirə biləcəyi bir səviyyəyə gətirilə bilər.





## Qarnından 1 kilo 360 qram saç çıxdı

Jasmin Percival adlı gənc qadın uşaqlıqdan bəri televizora baxanda saçlarını barmaqlarına dolayıb, onu əmib. Mirror.co.uk internet saytında yayımlanan xəbərə görə, 14 yaşına çatanda onda fasiləsiz qarın ağrıları başlayıb. Həkimlər ona bağırsaq iltihabı diaqnozu qoysa da, onun ağrıları heç cür keçmək bilməyib. Ağrıları o qədər şiddətli olub ki, gecələr bağıraraq oyanırmış. Jasmin 2 ildən artıq davam edən sancıları haqda belə danışıb: "Yemək yemək istəyirdim, amma nə yesəm, mədəmə enib, geri gəlirdi. Mədəm düyünlənirdi. Getdikcə zəifləyirdim, skelet kimi görünməyə başlamışdım. Həkimlər çoxlu dərman verdi, amma heç biri işə yaramadı. Təkrarən həkimə gedib aparata düşəndən sonra isə məlum oldu ki, mədəmdə 1 kilo 360 qram ağırlığında topa saç var".

Qızın qarnındakı saç yığını qeysəriyyə əməliyyatı ilə götürülüb. Bu pis vərdişini isə əməliyyatdan sonra atıb. Artıq o, saçını yemir. Hətta bunu etməmək üçün saçını bərk-bərk yığır.

## Qoroskop




QOÇ - Ümumi süstlüyünüz kifayət qədər səngiyəcək. Bunu həm hadisələrin gedişatında, həm də rastlaşdığınız insanlarla münasibətlərdə görəcəksiniz. Planınızda varsa, uzaq səfərlərə çıxa bilərsiniz.

BUĞA - Ulduzlar bir daha yalan vəd verməməyi tövsiyə edir. Əgər etibarınızı qoruya bilsəniz, təxminən saat 14-dən sonra ovqatınıza müsbət təsir edəcək hadisələr baş verəcək. Bu gün səfərə çıxmayın.

ƏKİZLƏR - Bütün astroloji göstəricilər bu gün ixtiyarın öz əlinizdə olacağını bəyan edir. Yalnız qarşınıza çıxan hər bir situasiyada obyektivliyinizi təmin etməlisiniz. Risk etməyə lüzum yoxdur.

XƏRÇƏNG - Günün ilk yarısı maliyyə əməliyyatları aparmaq üçün çox uğurludur. Çalışın ki, bu prosesdə təcrübəli insanlarla bir arada olasınız. Nahardan sonra isə qayğıya ehtiyac duyan doğmalarınıza baş çəkəsiniz.

ŞİR - Yüksək çinli adamlarla perspektivli danışıqlar aparmaq üçün yaxşı gündür. Xüsusən də saat 14-18 arası bu istiqamətdə uğurlarınız gözlənilir. Hər hansı tərəddüdə ehtiyac yoxdur.

QIZ - Nə qədər ki, öz bürcünüz hakimdir, qarşınıza çıxan hər bir şansdan bəhrələnin. Xüsusən də cari problemlərinizin sürətli həllinə can atın. Axşam saatlarını sevdiyiniz insanlara həsr edin.

TƏRƏZİ - Səhər saatları bir qədər gərgin başlasa da, özünüzü təmkinli aparmaqla vəziyyətdən qurtula bilərsiniz. Günün sonrakı saatlarında isə uğurlarınız bol olacaq. Uzaq yola çıxmayın.

ƏQRƏB - Fəaliyyət göstərdiyiniz sahələrdə mübahisəli situasiyalarla rastlaşma ehtimalınız var. Həmkarlarınız və rəhbərliklə mülayim davranın. Nahardan sonra şəxsi büdcənizdə artım gözlənilir.

OXATAN - Yeni təkliflər gözlənilsə də, bütün hallarda tələsik razılıq verməyin. Etibar etdiyiniz şəxslərlə məsləhətləşin ki, bunun səmərəsini görəsiniz. Axşama yaxın bir neçə sürprizə hazır olun.

OĞLAQ - Yeniliklər yolunuzu gözləyir. Həm münasibətlər istiqamətində, həm də fəaliyyət müstəvisində müsbət mənzərə yaranacaq. Hətta nahardan sonra maddi zəmində uğurlarınız da mümkündür.

SUTÖKƏN - Maliyyə məsələləri ilə bağlı problemlərinizi həll etməyə çalışın. Bütün gücünüzü səfərbər etməklə istəyinizə yetişə bilərsiniz. Bu gün qida rasionunuzu da diqqətdə saxlayın - zəhərlənmə ehtimalınız var.

BALIQLAR - Bütün gücünüzü səfərbər edib yarımçıq işlərinizi yekunlaşdırın. Bu istiqamətdə sizə köməyi dəyəcək insanlara müraciət etməkdən də çəkinməyin. Deyilənləri edin ki, xoş günlərə start verilsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kişi üzünə 100 qat kosmetika çəkdi ki...




İrlandiyalı blogger Riyad K öz YouTube kanalında maraqlı videoyazı paylaşıb. Həmin süjetdə o, üzünə 100 qat kosmetik vasitə çəkərək, süni qaralma görüntüsü yaratmağa çalışıb. Avqustun 19-da internetə yüklənən videonu indiyədək 44 min nəfər izləyib. Hər yeni qatı üzünə çəkməzdən öncə Riyad üzünü fenlə qurudub. Amma bu rolik barədə danışarkən bildirib ki, hər qat üçün istifadə olunan spreydən sonra üzündə ağrılar müşahidə olunub.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750